**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AQROBİZNES SEKTORUNDA KİÇİK VƏ ORTA SAHIBKARLIĞIN İNKİŞAF İSTİQAMƏTLƏRİ

İxtisas: 5308.01 – Ümumi iqtisadiyyat

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Sevda Tofiq qızı Hacıyeva**

Elmlər doktoru
elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2024**

Dissertasiya işi Azərbaycan Dövlət Aqrar Universitetində yerinə yetirilmişdir.

Elmi məsləhətçi: iqtisad elmləri doktoru, professor
**Xatirə Mail qızı Hüseynova**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru
**Elnurə Bünyat qızı Məmmədova**

iqtisad elmləri doktoru
**Arzu Nəcəf oğlu Həsənov**

iqtisad elmləri doktoru, professor
**Vilayət İbrahim oğlu İsmayılov**

iqtisad elmləri doktoru
**Nailə Rauf qızı Əliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin Birgə Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: iqtisad elmləri doktoru
**Elşən Əli oğlu İbrahimov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan iqtisadiyyatının hazırkı inkişaf mərhələsində dövlətin həyata keçirdiyi iqtisadi siyasətin prioritetini bazar iqtisadiyyatının ən vacib elementlərindən olan sahibkarlıq subyektlərinin inkişafına təkan verəcək iqtisadi islahatların intensiv şəkildə həyata keçirilməsi təşkil edir. Bu istiqamətdə dövlət himayəsinə və dəstəyinə ehtiyac duyulan sahələrdən olan aqrar sahədə xüsusilə kiçik və orta sahibkarlıq subyektlərinin mütəşəkkil fəaliyyətinin təşkil edilməsi ən vacib məsələlərdən hesab olunur. Qlobal ərzaq bazarlarında baş verən dəyişikliklər aqrar sahənin əsas inkişaf indikatorlarından olan kiçik və orta sahibkarlığın (KOS) dayanaqlı inkişafını şərtləndirmiş və istehlak bazarında rəqabət mühitinin daha da genişləndirilməsini zərurətə çevirmişdir. Son bir-neçə ildə qlobal miqyasda iqtisadi konyukturada baş vermiş destruktiv təzahürlər milli dövlətlərin iqtisadiyyatında diversifikasiya prosesinin intensiv şəkildə həyata keçirilməsini bir qədər də aktuallaşdırmışdır ki, bu da bilavasitə KOS-ın inkişafı ilə sıx bağlı olan məsələdir.

Hazırkı iqtisadi şəraitdə qeyri-neft sektorunun şaxələndirilməsi və inkişafı Azərbaycan dövlətinin iqtisadi siyasətinin prioritetini təşkil edir. Son illər hökumət tərəfindən həyata keçirilən iri miqyaslı dövlət proqramları da bilavasitə bu məqsədə xidmət etmişdir. Lakin etiraf etməliyik ki, inkişaf etmiş ölkələrlə müqayisədə KOS-ların Azərbaycan iqtisadiyyatı üçün yaratdığı əlavə dəyər hazırda arzu olunan səviyyədə deyildir. Bu və digər göstəricilərin formalaşmasında ölkə iqtisadiyyatının hazırkı inkişaf parametrləri ilə yanaşı geosiyasi və qlobal səviyyədə baş verən proseslərin təsirinin də olduğunu söyləyə bilərik.

Bəzi tədqiqatçıların qənaətinə görə, liberal iqtisadi sistemə keçən ölkələrdə KOS-ların inkişafı ÜDM istehsalının davamlı artırılması, büdcə gəlirlərinin maliyyələşmə mənbələrinin diversifikasiyası və işsizlik səviyyəsinin azaldılmasında mühüm rol oynamaqla dünya iqtisadiyyatına müvazinətli inteqrasiya prosesini sürətləndirir. KOS-lar eyni zamanda əhalinin həyat səviyyəsinin yüksəldilməsinə və pul gəlirlərinin artırılmasına da müsbət təsir göstərir. KOS-ların sosial-

iqtisadi əhəmiyyəti ilə yanaşı onun istehsal sahələrində rəqabət imkanlarını artıra biləcək dinamik mexanizmə sahib olması həm lokal bazarlarda, həm də beynəlxalq miqyasda iqtisadi hədəflərin reallaşdırılmasında mühüm elementlərdən biri olmasına əsas verir. Kiçik və orta sahibkarlığın iqtisadiyyatda önəmli rolu əsasən onun xüsusiyyətləri ilə əlaqəlidir.

Hazırda respublikamızda aqrar sahə və onun tərkibində fəaliyyət göstərən iqtisadi subyektlər xüsusilə də KOS kateqoriyasına daxil olan təsərrüfatlar dövlətin diqqət mərkəzindədir. Xüsusilə işğaldan azad edilmiş ərazilərdə aqrar sahibkarlığın inkişaf perspektivlərinin yüksək səviyyəsi KOS-ın dövlət tərəfindən dəstəklənməsi zərurətini önə çəkir. Eləcə də pandemiyanın təsiri ilə iqtisadiyyatın ayrı-ayrı sahələrində, o cümlədən aqrar sahibkarlıq sferasında iqtisadi fəallığın azalması, KOS-ın inkişaf etdirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsinə ehtiyacı daha da artırır. Bu aspektdə və yeni iqtisadi zonaların yaradılması və idarə edilməsini özündə ehtiva edən "Xüsusi iqtisadi zonalar haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun olaraq aqrar siyasətin qarşısında duran başlıca vəzifə, ölkədə və hər bir iqtisadi zonada təkmil struktura malik olan rəqabətqabiliyyətli aqrobiznes sektorunun formalaşdırılması əsasında ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsi, kənd yerlərində həyat səviyyəsinin yaxşılaşdırılması və ölkənin aqrar sektorunun dünya bazarına səmərəli inteqrasiyasına nail olmaqdır.

Azərbaycanda KOS-ların inkişafı iqtisadi diversifikasiya, məşğulluq, istehlak mallarına olan tələbatın yerli imkanlar hesabına ödənilməsi, idxaldan asılılığın aradan qaldırılması və davamlı iqtisadi yüksəlişə nail olmaq baxımından vacibdir. Bu istiqamətdə KOS-ların fəaliyyətini sahibkarlığın ümumi inkişaf konteksində prioritetlərdən biri kimi qiymətləndirmək lazımdır. Bu gün Azərbaycan Respublikasında dövlətin əsas diqqəti qeyri-neft sektorunda xüsusilə kənd təsərrüfatı və ticarət sahəsində xüsusi çəkiyə malik kiçik və orta sahibkarlığın inkişafına şərait yartmaq və bununla da iqtisadiyyatın çoxşaxəliliyini təmin etməkdir. Respublikamızda iqtisadi diversifikasiyanın əsasını bir neçə səbəbə görə sahibkarlıq üçün uyğun mühitin yaradılması və stimullaşdırması ilə əlaqələndirmək olar. Son illər dünya bazarlarında baş verən siyasi və iqtisadi ammillərin təsiri

ilə əlaqədar Azərbaycan iqtisadiyyatının əsas inkişaf faktoru olan neftin və qazın qiymətinin qeyri-sabit olması ölkə iqtisadiyyatına mühüm təsir edən amillərdən biridir. İkinci isə qeyri neft sektorunun dayanıqlı inkişafı üçün əhəmiyyət kəsb edən KOS-lar neft sektoruna münasibətdə mümkün olan alternativlərin optimal səviyyədə dəyərləndirilməsi imkanlarını artırır.

Strateji sahələrdən olan aqrar sahə və onun tərkib elementi sayılan aqrobiznesdə mövcud olan təsərrüfatların istehsal potensialının yüksəldilməsi məhz KOS-ların inkişafı ilə sıx əlaqəlidir. Çünki sahə üzrə fəaliyyət göstərən müəssisələrin 90%-ə yaxını məhz bu kateqoriyaya aiddir. Bu baxımdan ölkə pezidenti cənab İlham Əliyevin 1 avqust 2018-ci il tarixli “Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında” Fərman imzalaması respublikamızda xüsusilə KOS-ların inkişafı istiqamətində atılmış mühüm bir siyasi addım kimi qiymətləndirilməlidir. Eyni zamanda “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nda da *“dövlət-özəl tərəfdaşlığına əsaslanan iqtisadi artımın stimullaşdırılması və dayanıqlı məskunlaşmanın təmin edilməsi”* təsbit olunur.[1] Hesab edirik ki, vurğulanan məsələlər tədqiqatın kifayət qədər aktual bir mövzuya həsr olunduğunu əks etdirir.

Son illərdə həm respublikamızda həm də xaricdə, alimlər və tədqiqatçılar tərəfindən aqrobiznes sektorunda kiçik və orta sahibkarlığın inkişafı problemlərinin araşdırılmasına marağın artması müşahidə olunur. Azərbaycanlı alimlər Z.Ə.Səmədzadə, A.A.Nadirov, E.A.Quliyev, B.X.Ataşov, İ.H.İbrahimov, İ.V.Əhmədov, R.B.Əliyev, Ə.X.Nuriyev, V.T.Novruzov, S.V.Salahov, V.M.Niftullayev, A.F.Abbasov, E.Ə.İbrahimov, İ.H.Alıyev, X.M.Hüseynova, Y.K.Kəlbiyev, Ə.Ç.Verdiyev, S.İ.Vəliyeva, İ.Ş.Qarayev, həmçinin postsovet məkanı alimlərindən L.İ.Abalkin, S.V.Alekseyev, N.Q.Aqurbaş, N.T.Balabanov, A.O.Blinov, P.V.Zabelin, N.K.Moiseyeva, İ.N.Gerçikova, A.Y.Yudanov, M.B.Şepakin və bir çox başqalarının araşdırmaları

[1] https://e-qanun.az/framework/52757

təqdim olunan dissertasiya işi üçün metodoloji baza kimi çıxış etmiş, aqrobiznesə kiçik və orta sahibkarlığın inkişafının nəzəri aspektlərinin tədqiqində mühüm töhfə vermişlər. ABŞ və Qərbi Avropa alimlərdən A.Xoskinq, Y.Şumpeter, D.K.Gelbreyt, P.Samuelson, C.Keyns, P.Xayne, K.Makkonnell və S.Bryu, A.A.Tompson və A.C.Striklend, M.E.Porter, İ.M.Kirsner və başqa müəlliflərin əsərləri təqdim edilən bu dissertasiya işinin keyfiyyətinin artmasında mühüm rol oynamışdır.

Lakin sadalanan müəlliflərin tədqiqat işlərinin çox hissəsi sahibkarlığın ümumi və metodoloji əsaslarının, yaxud inkişafın konkret bir istiqamətinin işlənməsinə həsr olunmuş, istehsal, satış, xidmətlər və maliyyə təminatı sahəsində aqrobiznesdə kiçik və orta sahibkarlığın formalaşması və inkişafı müstəqil iqtisadi problem kimi hələ də kifayət qədər tədqiq olunmamışdır. Bundan başqa, sahibkarlığın təşkilati-iqtisadi və sosoial-iqtisadi problemləri kifayət qədər işıqlandırılmamışdır, istehsal sahəsində sahibkarlıq üçün zəruri şərait və mexanizmlər əhatəli şəkildə öyrənilməmişdir.

Ümumilikdə aqrobiznes sferasında sahibkarlığın və xüsusi olaraq kiçik və orta sahibkarlığın inkişafı probleminin aktuallıq və kəskinliyi, eləcə də aqrar sahibkarlığın səmərəliliyinə təsir göstərən makro və mikro iqtisadi mexanizmlərin əhəmiyyətinin kifayət qədər aydınlaşdırılmaması bu dissertasiya mövzusunun seçimində mühüm rol oynamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat obyekti Azərbaycan Respublikasının aqrobiznes sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektləridir. Tədqiqatın predmetini aqrobiznes sektorunda kiçik və orta sahibkarlığın inkişafı prosesində yaranan sosial-iqtisadi münasibətlər, sahibkarlığın səmərəliliyinin artırılması qanunauyğunluqları, vasitə və üsulları təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi iqtisadiyyatın strateji sahələrindən olan aqrobiznesdə KOS subyektlərinin aktivləşdirilməsinə şərait yaradan təşkilati-iqtisadi mühitin formalaşdırılması üçün konseptual yanaşmanın işlənib hazırlanması və onun səmərəliliyinin artırılmasının əsas istiqamətlərinin müəyyənləşdirilməsidir.

Tədqiqatın məqsədi aşağıdakı əsas vəzifələrin qarşıya qoyulması və həlli zərurətini müəyyən etmişdir:

- aqrobiznes sahəsində kiçik və orta sahibkarlığın sosial-iqtisadi mahiyyətini və əsas xarakteristikalarını açmaq;
- kənd təsərrüfatında fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektlərinin spesifikasının ümumi cəhətlərinin təhlilini aparmaq;
- aqrar sektorda sahibkarlıq fəaliyyətinin spesifik xüsusiyyətlərini müəyyən etmək;
- aqrobiznes sektorunda kiçik və orta sahibkarlığın inkişafını zərurətə çevirən amilləri tədqiq etmək;
- ölkə iqtisadiyyatının müasir inkişaf mərhələsində aqrobiznes sferasında sahibkarlığın problemlərini tədqiq etmək və ölkəmizdə bazar münasibətlərinin formalaşması və iqtisadiyyatın yüksəlməsinə onun təsirini öyrənmək;
- aqrobiznes sektorunda kiçik və orta sahibkarlığın stimullaşdırılmasının əsas istiqamətlərini tədqiq etmək;
- sahibkarlığın inkişafı şəraitində aqrar istehsalda struktur dəyişikliklərinin istehsalın iqtisadi səmərəliliyinə təsirini müəyyən etmək;
- aqrar sahibkarlığın səmərəliliyinə yanaşmaları təhlil edən müqayisəli tədqiqatlar əsasında sahibkarlığa yardımın ən effektiv metodikalarının Azərbaycan şəraitində sahibkarlıq fəaliyyətinə uyğunlaşdırılmasının mümkünlüyünü qiymətləndirmək;
- aqobiznesdə loqistik sistemlərin və innovasiya infrastrukturunun formalaşmasının zəruriliyini əsaslandırmaq;
- aqrobiznes sektorunda kiçik və orta sahibkarlığın inkişafının əmək bazarının strukturuna təsirini aşkara çıxarmaq;
- aqrobiznesin və KOS-ların inkişafında investisiya cəlbediciliyinin artırılmasının zəruriliyini əsaslandırmaq;
- aqrobiznesdə kiçik və orta sahibkarlıq fəaliyyətinin səmərəliliyini şərtləndirən amilləri öyrənmək və bunun əsasında rəqabət mübarizəsinin zərurətini nəzərə almaqla, onun idarə olunması mexanizminin formalaşdırılmasında bu amillərin rolunu qiymətləndirmək;
- respublikamızda aqrobiznes sektorunun mövcud vəziyyəti və onun komleks təhlilini vermək;

- aqrobiznesdə KOS-ların bazara çıxış imkanlarının genişləndirilməsi, istehsal-satış əlaqələrinin tənzimlənməsi istiqamətlərini müəyyən etmək;
- aqrobiznesdə KOS-ların ixrac potensialının yüksəldilməsinin prioritetlərini və maliyyə təminatının gücləndirilməsi istiqamətlərini təhlil etmək;
- sahibkarlıq fəaliyyətinə dövlət dəstəyinin iqtisadi mexanizmləri və onların əsas istiqamətlərinin tədqiqi;
- sahibkarlıq subyektlərinin əlverişli fəaliyyətini təmin etmək üçün zəruri hüquqi bazanın yaradılması;
- mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi üçün elmi cəhətdən əsaslandırılmış təkliflərin hazırlanması.

**Tədqiqat metodları.** Əsas tədqiqat alətləri qismində müşahidə, qruplaşdırma, iqtisadi-statistik, sistem-struktur, sistem-funksional, amil və müqayisəli təhlil metodlarından kompleks şəkildə istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə təqdim olunan əsas müddəalar aşağıdakılarla xarakterizə olunur:

- aqrar sahədə sahibkarlığın formalaşmasının elmi-nəzəri əsasları ilə bağlı ümumi müddəaların və sahibkarlığın inkişafının institusional aspektlərinin müəyyən edilməsi mühüm şərtlərdən biridir;
- aqrobiznes sferasında kiçik və orta sahibkarlığın inkişafını zərurətə çevirən amillərin, bütövlükdə aqrar sahənin inkişafına təsirinin aşkar edilməsi zəruridir;
- kiçik və orta sahibkarlıq subyektlərinin regionların sosial-iqtisadi inkişafında aqrar sahənin rəqabət qabiliyyətinin yüksəldilməsindəki rolunun müəyyən edilməsi diqqət mərkəzində olmalıdır;
- kiçik və orta sahibkarlığın stimullaşdırılmasının əsas istiqamətlərini müəyyən etməklə aqrar istehsalda struktur dəyişikliklərinin istehsalın iqtisadi səmərəliliyinə təsirinin qiymətləndirilməsinə diqqət yetirilməlidir;
- aqrobiznes sektorunda istehsalın mövcud vəziyyətinin, kiçik və orta sahibkarlığın inkişaf perspektivlərinin, həmçinin kiçik və

orta sahibkarlıq fəaliyyətini xarakterizə edən göstəricilərin qiymətləndirilməsi vacib sayılmalıdır;

- aqrar sahə məhsullarına olan tələbatın ödənilməsi səviyyəsinin qiymətləndirilməsi və sahibkarlıq fəaliyyətinin bu tələbatın ödənilməsinə təsirinin müəyyən edilməsi mühümdür;
- aqobiznesdə loqistik sistemlərin və innovasiya infrastrukturunun formalaşmasının zəruriliyinin və klasterlərin yaradılmasının KOS-ın inkişafında rolunun əsaslandırılması vacibdir;
- kiçik və orta sahibkarlığın inkişafının əmək bazarının strukturuna təsirinin qiymətləndirilməsi və investisiya cəlbediciliyinin artırılmasının zəruriliyi əsaslandırılmalıdır;
- aqrobiznes sektorunda KOS-ların fəaliyyətinin iqtisadi səmərəliliyinin yüksəldilməsi istiqamətlərinin və bazara çıxış imkanlarının genişləndirilməsi mühüm sayılmalıdır;
- aqrobiznesdə KOS-ların ixrac potensialının yüksəldilməsi prioritetlərinin, kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə təminatının gücləndirilməsi istiqamətlərinin müəyyən edilməlidir;
- ölkə iqtisadiyyatında kiçik və orta sahibkarlığın payının artırılması perspektivləri aşkara çıxarılmalıdır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi iqtisadiyyatın strateji baxımdan perspektiv sahələrinin sürətli inkişafının mühüm amili kimi, sahibkarlıq mühitinin formalaşmasına konseptual yanaşmanın əsaslandırılması və onun səmərəliliyinin yüksəldilməsinin əsas istiqamətlərinin əsaslandırılmasından ibarətdir.

İşin elmi yenilikləri aşağıdakılardan ibarətdir:

- ➢ aqrobiznes sektorunda sahibkarlıq mühitinin inkişaf etmiş bazar iqtisadiyyatına malik ölkələrdə istifadə olunan struktur təcrübəsi ölkəmizdə metodoloji əsas kimi bazar iqtisadiyyatının formalaşdırılmasının spesifikası nəzərə alınmaqla tətbiq edilməsinin məqsədəuyğunluğu əsaslandırılmışdır;
- ➢ maddi istehsal sahəsində sahibkarlığın səmərəliliyinin çoxamilli qiymətləndirilməsinə metodoloji yanaşma işlənib hazırlanmışdır;
- ➢ aqrobiznesdə kiçik və orta sahibkarlığın intensivliyinə, onun səmərəliliyinə və müşayiətedici risklərə təsir göstərən amillər aşkar olunmuş, eləcə də ölkə iqtisadiyyatının hazırkı inkişaf

mərhələsində sahibkarlığın təsirinin qiymətləndirilməsi aparılmışdır;

- müəyyən edilmişdir ki, sahibkarlığın sosial səmərəliliyinin artırılması üçün sosial yönümlü bazar mexanizmlərinin tətbiqi zəruridir, bu zaman həmin mexanizmlərin tənzimləyicisi və qurucusu rolunu dövlət öz üzərinə götürməlidir;
- sahibkarlıq fəaliyyətinə maneəçilik törədən amillərin aşkarlanmasını ehtiva edən, dövlət tərəfindən sahibkarlığın inkişafını stimullaşdıran vergi, tarif, maliyyə-kredit və investisiya siyasəti vasitəsilə tənzimlənməsi metodlarını müəyyən edən səmərəli sahibkarlıq şərtlərinin formalaşdırılması konsepsiyası işlənib hazırlanmışdır;
- maddi istehsal sahəsində işləyən sahibkarlıq subyektini idarə edən menecmentin səmərəliliyinin qiymətləndirilməsinin metodologiyası verilmişdir;
- sahibkarlığın səmərəliliyinin yüksəldilməsinin mühüm amili kimi, onun kadr potensialının keyfiyyət təkmilləşdirmələrinin istiqamətləri əsaslandırılmış, bazar mühitində sahibkarların ixtisas dərəcəsi ilə bağlı irəli sürülən tələblər formalaşdırılmış və bu tələblərə müvafiq olaraq sahibkarlığın inkişafına kompleks yanaşma işlənib hazırlanmışdır;
- sübut edilmişdir ki, müasir rəqabət mexanizminin struktur-funksional təşkilinin əsaslandırılması aqrobiznes sahəsində sahibkarlığa səmərəli dövlət yardımı siyasətinin işlənib hazırlanmasına, onun rəqabət qabiliyyətinin yüksəldilməsi tədbirlərinin gerçəkləşdirilməsinə, Azərbaycanda yüksək səviyyədə inkişaf etmiş sahibkarlıq və rəqabət mühitinin yaradılmasına imkan yaradır;
- aqrobiznes müəssisələrinin fəaliyyətinin daxili monitorinqinin təşkilinə və onun daxili mexanizmlərinin təkmilləşdirilməsi istiqamətlərini əsaslandırılmış şəkildə seçməyə imkan verən yeni elmi-metodiki yanaşma işlənib hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqatın metodoloji müddəaları sahibkarlıq nəzəriyyəsinə müəllifin konkret töhfəsi olaraq, aqrobiznesdə kiçik və orta sahibkarlığın inkişafının və səmərəlilik probleminin nəzəri aspektlərini təkmilləşdirilməsinə dəstək ola bilər.

Dissertasiyada əldə olunan nəticələr və praktik tövsiyələr qanunvericilik və icra orqanları tərəfindən sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi və sahibkarlığın inkişafına kömək proqramlarının işlənib hazırlanması və həyata keçirilməsi, ölkənin strateji maraqları baxımından onun ən prioritet inkişaf istiqamətlərinin stimullaşdırılması zamanı faydalı ola bilər. Bundan başqa, tədqiqatın nəticələri yüksək ixtisaslı sahibkarların hazırlanması üçün tədris proqramlarında istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin başlıca müddəaları və əsas nəticələri nüfuzlu yerli və xarici jurnallarda, həmçinin respublika və beynəlxalq əhəmiyyətli elmi-praktiki konfrans materiallarında öz əksini tapmışdır. Dissertasiya işinin əsas müddəaları 5-i xaricdə olmaqla 15 məqalədə, 4-ü xaricdə olmaqla 9 konfrans materialında öz əksini tapmışdır. Bunlardan başqa 2021-ci ildə müəllifin "Aqrobiznesdə kiçik və orta sahibkarlığın inkişafının əsas aspektləri" adlı monoqrafiyası işıq üzü görmüşdür.

Konfrans materialları sırasında "İdarəetmə qərarlarının qəbulunda spesifik sistemli yanaşma" (Bakı, 2014), "Роль агробизнеса в обеспечении качественной продукции потребительского рынка в Азербайжанской Республики" (Минск, 2017), "Difficulties faced by small and medium entrepreneurs in the agribusiness sector of the Republic of Azerbaijan and ways to overcome them" (Austria, 2021), "Роль малого и среднего предпринимательства в развитии регионов Азербайджана" (Москва, 2022) adlı tezisləri göstərmək olar. Tədqiqat zamanı müəllifin həmçinin "Aqrar emal müəssisələrinin inkişafında kənd təsərrüfatı istehsalının rolu" (Bakı, 2015), "Современное состояние и перспективы развития малого и среднего предпринимательства в Азербайджанской Республике" (Липень, 2016), "Приоритетеные направления государственной поддержкималых и средних предприятий в аграрном секторе Азербайжанской Республики" (Москва, 2018), "Factors influentcıng the development of entrepreneurs production and sales relationships the agrıbusıness sector of the republic of Azerbaıjan" (Vienna, 2019), "Aqrobiznesdə logistik sistemlər və innovasiya infrastrukturunun formalaşması və inkişafının müasir aspektləri" (Bakı, 2023) adlı məqalələri dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Dövlət Aqrar Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**. Tədqiqat işi girişdən, beş fəsildən, nəticələrdən, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. İşdə 26 cədvəl, 11 şəkil, 6 sxem, 3 diaqram, 2 qrafik verilmişdir. Giriş 17475 işarədən, I fəsil 86554 işarədən, II fəsil 79741 işarədən, III fəsil 50866 işarədən, IV fəsil 79701 işarədən, V fəsil 89757 işarədən, nəticə 11367 işarədən və istifadə edilmiş ədəbiyyat siyahısı 34448 işarədən ibarətdir. Dissertasiyanın ümumi həcmi 474720 işarə təşkil edir. Dissertasiyanın işarə sayı cədvəllər, qrafiklər, istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla 415461-dir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri, metodları səciyyələndirilmiş, müdafiəyə çıxarılan əsas müddəalar şərh edilmiş, işin elmi yenilikləri, nəzəri-praktiki əhəmiyyəti və aprobasiyası öz əksini tapmışdır.

Dissertasiya işinin **"Aqrobiznes sektorunda kiçik və orta sahibkarlığın formalaşdırılması və inkişafının elmi-nəzəri əsasları"** adlı birinci fəslində müasir iqtisadi şəraitdə aqrar sektorda sahibkarlıq fəaliyyətin spesifik xüsusiyyətləri, aqrobiznes sektorunda kiçik və orta sahibkarlığın formalaşdırılmasının institusional əsasları, aqrobiznes sektorunda kiçik və orta sahibkarlığın inkişafını zərurətə çevirən amillər şərh edilmişdir.

Respublikamızda bazar iqtisadiyatının əsas prinsiplərini təmin olunması istiqamətində həyata keçirilən məqsədyönlü islahatlarla birlikdə sahibkarlıq strategiyası bütün fəaliyyət sferalarını əhatə etmiş və onun inkişaf xüsusiyyətlərində əsas nüanslar ortaya çıxmışdır. Xüsusilə dövlət himayəsi və dəstəyinin zəruriliyi ilə xarakterizə olunan aqrar sektorda sahibkarlıq fəaliyyətinin davamlılığı və inkişaf istiqamətləri iqtisadiyyatın digər sahələri ilə müqayisədə əsaslı şəkildə fərqlənmişdir. Bu aspektdə son iyirmi ildə aqrar sahənin istehsal strukturunun formalaşması və inkişafı daha çox investisiya

qoyuluşlarının səviyyəsindən asılı olmuşdur. Təsadüfi deyil ki, investisiya qoyuluşları əsasında özünün inkişaf yoluna qədəm qoyan kənd təsərrüfatında son illər xüsusilə kiçik və orta ölçülü təsərrüfatların inkişafı üçün imkanlar nəzərəçarpacaq dərəcədə yüksəlmişdir. Müvafiq dövrdə dövlət aqrar sahədə dəstəyə və himayəyə daha çox ehtiyac duyan rəqabətqabiliyyətli məhsul istehsalında öncüllük təşkil edən kiçik və orta ölçülü təsərrüfatlar başda olmaqla bütün istahsal subyektlərinin inkişafında mühüm rol oynamışdır. Aqrar sahənin dayanıqlı inkişafı ölkə iqtisadiyyatının bütün mərhələlərində diqqət mərkəzində olmuşdur, xüsusilə sahibkarların fəaliyyəti daima dövlətin diqqət mərkəzində olmuşdur. Ulu öndərin təbirincə desək, *"...iqtisadiyyatın böyük bir hissəsi sahibkarların əlindədir və onların səmərəli işləməsi Azərbaycanın iqtisadiyyatının inkişafını təmin edən amildir"* [2].

Hazırda dövlət tərəfindən həyata keçirilən aqrar siyasət əsas məqsədi iqtisadiyyatın şaxələndirilməsi və sahibkarlığın bütün formalarının hərtərəfli inkişafını təmin etməyi hədəfləyir. Azad iqtisadi münasibətləri şəraitində sahibkarlıq subyektlərinin fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi əsasən iqtisadi metodlarla vasitəsi ilə həyata keçirilməlidir. Bunun üçün dövlətin iqtisadi vasitələrlə tənzimləmə siyasətinin konseptual elmi-nəzəri əsaslarının işlənib hazırlanması və onun yerli şəraitə uyğunlaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Sahibkarlıq fəaliyyətinin iqtisadi vasitələrlə tənzimlənməsi ilk növbədə biznes və investitsiya mühitinin yaxşılaşdırılmasını və sahibkarlıq subyektlərinə dövlət yardımının həyata eçirilməsini təşkil edir. Makro iqtisadi tənzimləmə vasitələrinin aktivləşdirilməsi yolu ilə maliyyə bazarlarına, o cümlədən infrastruktur sisteminə, bazarın fəaliyyətinə, rəqabət mühütünə və antiinhisar mexanizminin təkmilləşdirilməsinə təsir göstərilir.

Azərbaycanın görkəmli iqtisadçı-alimi akademik Z.Ə.Səmədzadə öz çıxışlarında qeyri-neft sektorunun inkişafında kənd təsərrüfatının aparıcı rola malik olmasını, həmin sahənin məhsullarının rəqabətqabiliyyətliliyinin və ixracyönümlülüyünün artırılmasını və

---

[2] İsa Alıyev. Heydər Əliyev və Azərbaycanın iqtisadi inkişaf strategiyası // Xalq qəzeti – 2010, 16 may. – s. 1.

onun xaricdən daha çox valyuta gətirən sferaya çevrilməsini, iqtisadi rayonlarda sahibkarlıq fəaliyyətinin dövlət tərəfindən dəstəklənməsini və stimullaşdırılmasını, sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsini və ondan səmərəli istifadə olunmasını, real sektorun inkişafında bankların daha da fəallaşmasını qeyd etmiş və onun reallaşma istiqamətlərini göstərmişdir. Sahibkarlıq və investitsiya mühütünün yaxşılaşdırılması, ilk növbədə davamlı iqtisadi inkişafın təmin edilməsinə və daxili bazarda yerli istehsalın xüsusi çəkisinin möhkəmləndirilməsinə əlverişli şərait yaradır. Bu baxımdan cəmiyyətdə biznes və dövlət strukturları arasında səmərəli qarşılıqlı münasibətlərin formalaşdırılması, xüsusi sahibkarlıq fəaliyyətinə əlverişli şərait yaradılması, xarici kapitalın yerli istehsal sektorlarına cəlb edilməsi, səmərəli makroiqtisadi tənzimləmə mexanizmlərinin genişləndirilməsi ilə qarşılıqlı surətdə əlaqədardır[3].

Azərbaycanın aqrobiznes sektorunda sahibkarlıq fəaliyyətinin normal fəaliyyətini təmin olunması əlverişli və azad biznes mühitinin formalaşması və inkişafı ilə bilavasitə bağlıdır. Beləki, bazar münasibətləri şəraitində aqrar sahədə bütün təfərrüat subyektləri bir-birindən tədric olunmuş şəraitdə deyil, azad biznes mühiti çərçivəsində qarşılıqlı asılılıqda (vəhdətdə) fəaliyyət göstərir ki, bu da onların hər birinin müstəqil yerini və mövqeyini müəyyən etmiş olur.

Respublikanın aqrobiznes sektorunda kiçik və orta sahibkarlıq fəaliyyətinin normal gedişi üçün qətiyyətli iqtisadi siyasət həyata keçirilməlidir ki, son illlər bu istiqamətdə dövlətimiz tərəfində çox vacib, elmi əsaslara söykənən addımlar atılır. Sahibkarlıq fəaliyyətində siyasi mühit ölkənin sosial-iqtisadi vəziyyətinə, təsərrüfat subyektlərinin fəallığına və mövqelərinə birbaşa təsir göstərir. Sahibkarlığın inkişafı Azərbaycanda dvlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri olmaqla, ölkədə iqtisadi və sosial problemlərin həllinin, cəmiyyətdə mikroiqtisadi sabitliyin möhkəmləndirilməsinin mühüm amili hesab olur. Bu məqsədlə son illərdə Azərbaycanda siyasi və mikroiqtisadi sabiyliyə nail olunması, sahibkarlığın inkişafı üçün əlverişli mühit yaratmışdır.

---

[3] Səmədzadə, Z.A. Azərbaycan iqtisadiyyatı 100 ildə (4 cilddə) / Z.Ə.Səmədzadə. – Bakı, 2022.

Kənd təsərrüfatında sahibkarlığın inkişaf etdirilməsi iqtisadiyyatın digər sahələri ilə müqayisədə özünəməxsus fərqli xüsusiyyətlərə malikdir. Təbii ki, bütün bunlar iqtisadiyyatın sahə quruluşu və eləcə də kənd təsərrüfatının özünəməxsus xüsusiyyətlərindən irəli gəlir. məlum olduğu kimi, kənd təsərrüfatı təbii iqlim şəraitindən asılı, eləcə də daxili və xarici rəqabətin əlverişsiz təzahürlərini effektiv şəkildə reaksiya göstərə bilməyən bir sahədir. Bu baxımdan kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin də özünəməxsus özəllikləri mövcuddur. Bu özəlliklər ilk növbədə onunla bağlıdır ki, kənd təsərrüfatının tam mənası ilə bazar özünü tənzimləmə mexanizminin öhdəsinə buraxılması son nəticədə sahibkarlıq fəaliyyətinin inkişafına mənfi təsir göstərə bilər. Odur ki, kənd təsərrüfatında sahibkarlığın inkişafına mənfi təsir göstərən çoxsaylı daxili və xarici mühit faktorlarının zərərli təsirlərinin neytrallaşdırılması vacibdir. Aqrobiznes sektorunda sahibkarlıq subyektlərinin fəaliyyətinə hüquqi status və ölçü meyarlarına xarakterik müəyyən amillərin də təsiri mövcuddur.




**Sxem 1. Aqrobiznes sektorunda sahibkarlıq subyektlərinin hüquqi status və ölçü meyarına görə təsnifatı**

*Mənbə: Müəllif tərəfindən tərtib olunmuşdur.*

Məhz belə bir şəraitdə kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin inkişafının zəruri iqtisadi və təşkilati mexanizmləri formalaşdırılmalıdır.

Daha doğrusu, kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin təşkilati və iqtisadi mexanizmləri ilk növbədə dövlətin aqrar siyasəti çərçivəsində kənd təsərrüfatının dövlət tənzimlənməsinə istiqamətlənməlidir. Kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin iqtisadi və təşkilati mexanizmləri dövlət tənzimlənməsinin birbaşa və dolayı təsir mexanizmlərin effektiv şəkildə reallaşdırılmasına əsaslanmalı və eyni zamanda aqrar ərzaq bazarlarının tənzimlənməsi prosesləri də gerçəkləşdirilməlidir. Kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin inkişafının iqtisadi mexanizmlərinə, ilk növbədə qiymət, maliyyə-kredit mexanizmləri, vergi və gömrük mexanizmlərinə şamil etmək mümkündür. Kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin iqtisadi mexanizmini səciyyələndirən ən mühüm cəhətlərdən biri ondan ibarətdir ki, bu proseslər bütövlükdə sahibkarlıq fəaliyyətinin inkişafına demək olar ki, dolayı yolla təsir göstərir. Dolayı təsir vasitələri ilk növbədə bazar özünü tənzimləmə mexanizminin fundamental prinsiplərinin pozulmaması ilə müşayət edilir. İnkişaf etmiş ölkələrin təcrübəsində davamlı olaraq iqtisadi mexanizmlərdən istifadə edilir. Kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin iqtisadi mexanizmləri ilk növbədə sahibkarlığın iqtisadi cəhətlərinin müdafiə edilməsinə, istehsalçıların iqtisadi cəhətdən stimullaşdırılmasına əsaslanır.

Azərbaycanda KOS-ların inkişafı iqtisadi diversifikasiya, məşğulluq, yerli istehlak mallarına olan tələbatın yerli imkanlar hesabına ödənilməsi, idxaldan asılılığın aradan qaldırılması və davamlı iqtisadi yüksəlişə nail olmaq baxımından vacibdir. Bu aspektdə KOS-ların fəaliyyətini sahibkarlığın ümumi inkişaf konteksində prioritetlərindən biri kimi qiymətləndirmək lazımdır. Bu gün Azərbaycan respublikasında dövlətin əsas diqqəti qeyri-neft sektorunda xüsusilə kənd təsərrüfatı və ticarət sahəsində xüsusi çəkiyə malik kiçik və orta sahibkarlığın inkişafına şərait yartmaq və bununlada iqtisadiyyatın çoxşaxəliliyinə nail olmaqdır. Respublikamız üçün iqtisadi şaxələndirmənin əsasını bir neçə səbəbə görə sahibkarlıq üçün uyğun mühitin yaradılması və stimullaşdırması təşkil edir. Birincisi son illər dünya bazarlarında baş verən siyasi və iqtisadi ammillərin təsiri ilə əlaqədar Azərbaycan iqtisadiyyatının əsas inkişaf faktoru olan neftin və qazın qiymətinin qeyri-sabit olmasının

ölkə iqtisadiyyatına mühüm təsirlərindən ibarətdir. İkinci isə qeyri neft sektorunun dayanıqlı inkişafı üçün xüsusi əhəmiyyət kəsb edən KOS-lar, həm daxili tələbatın dolğun şəkildə ödənilməsi həm də ixracın stimullaşdırılması və neft sektoruna mümkün olan alternativlərin optimal səviyyədə dəyərləndirilməsinin zərurətidir.




**Şəkil 1. 2022-ci ildə Azərbaycan Respublikasında mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayının iqtisadi sahələr üzrə strukturu**

*Mənbə: Diaqram Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi veb saytının www.stat.gov.az. məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Araşdırmalardan məlum olur ki, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadi sahələrə görə paylanmasında ən böyük pay pərakəndə ticarət üzrə özünü əks etdirir. Belə ki, kiçik sahibkarların 33,5%-i məhz bu fəaliyyət sahəsində cəmlənmişdir. Bunun əsas səbəblərindən biri, istehsal potensialının bir qədər zəif olmasını və digər sahələrin ölkə iqtisadiyyatında istehlak sahələrinə nisbətən daha zəif inkişaf etməsidir. Göstərilən səbəblərlə yanaşı hesab edirik ki, xüsusilə pərakəndə ticarət sahəsində inhisarçılıq meyillərinin zəif olması, ilkin kapitala olan tələbatın yüksək olmaması və bunlarla əlaqədar ticarət sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan iqisadi subyektlərin daha geniş rəqabət imkanlara malik olması burada mühüm rol oyanayır. Pərakəndə ticarət sahəsindən sonra KOS-lar

5,6% sənaye sektorunda, 7,0 % tikinti sektorunda, emal sənayesində 4,0%, təhsildə 2,0%,Turistlərin yerləşdirilməsi və ictimai iaşə 6,0%, nəqliyyat və anbar təsərrüfatı 20,1% digər sahələrdə 22,9 % fəaliyyət göstərir. Ölkə iqtisadiyyatının müasir inkişaf mərhələsində xüsusi diqqət göstərilən kənd təsərrüfatında sahibkarlar bu strukturda yalnız 1% xüsusi çəkiyə sahib olmuşdur.




**Şəkil 2. 2022-ci ildə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin Azərbaycanda iqtisadi bölgələrə görə bölgüsü**

*Mənbə: Diaqram Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi veb saytının www.stat.gov.az. məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Araşdırmalardan məlum olur ki, respublikamızda mövcud olan kiçik və orta sahibkarlıq subyektlərinin təqribən yarısı Bakı şəhərində fəaliyyət göstərir. Belə ki, bu strukturda KOS-ın 49,4%-i Bakı şəhərində; Mərkəzi Aranda 4,3%-i; Quba-Xaşmazda 3,4%-i, Gəncə-Daşkəsəndə 4,6% Lənkəran-Astarada 5,7%-i; Qazax-Tovuz iqtisadi bölgəsində 3,5%-i, Qarabağ iqtisadi rayonunda isə 4,0%-i fəaliyyətlərini davam etdirirlər.

Müasir bazar sisteminin inkişafı, ilk növbədə bazar rəqabət mühiti şəraitində sahibkarlıq qurumlarının effektiv fəaliyyət göstərməsini səciyyələndirir. Sahibkarlıq subyektlərinin səmərəli fəaliyyət göstərməsi, təbii ki, istehsal-təsərrüfat fəaliyyətinin nəticələri ilə səciyyələnir. geniş təkrar istehsal prosesinin maliyyə nəticələrinin yüksək olması, daha doğrusu istehsal və xidmət sahələrində, eləcə də satış sferasında fəaliyyət göstərən sahibkarlıq qurumlarının səmərəli fəaliyyət göstərməsi, ilk növbədə öz fəaliyyət sahələrini genişləndirməsinə əlavə stimul verir. Qeyd etmək lazımdır ki, sahibkarlığın hər bir ölkə üçün fərqli potensialı olsada onun inkişafı istiqamətində müəyyənləşdirilmiş qanunauyğunluqlar eynidir və ya böyük ölçüdə oxşarlıq təşkil edir. Hesab edirik ki, ölkə iqtisadiyyatında neft amillindən asılılığın azaldılmasının bu qədər ciddi diqqət yetirildiyi hazırki mərhələdə dünya dövlətlərinin xüsusilə bu sahədə qabaqcıl sayılan ölkələrin təcrübəsindən yararlanmaq ölkə iqtisadiyyatının diversifikasiyasını təmin etməklə yanaşı yüksək əlavə dəyəin yaradılması baxımından əhəmiyyəli ola bilər.

**“Ölkə iqtisadiyyatının diversifikasiyasi baxımından kiçik və orta sahibkarlığın inkişafının əhəmiyyəti”** - adlanan ikinci fəsildə regionların sosial-iqtisadi inkişafında kiçik və orta sahibkarlığın rolu, aqrar sahənin rəqabət qabiliyyətinin yüksəldilməsində kiçik və orta sahibkarlığın rolu, aqrobiznes sektorunda kiçik və orta sahibkarlığın stimullaşdırılmasının əsas istiqamətləri və sahibkarlığın inkişafı şəraitində aqrar istehsalda struktur dəyişiklikləri və onun istehsalın iqtisadi səmərəliliyinə təsiri qiymətləndirilir.

Son illərdə ölkəmizdə əldə olunmuş makroiqtisadi sabitlik dövlətimiz tərəfindən regionların sosial-iqtisadi inkişafına yönəldilmiş səmərəli siyasət istiqamətlərini müəyyən etmişdir. Ardıcıl olaraq regionların sosial-iqtisadi inkişafına dair bir sıra Dövlət Proqramları qəbul edildikdən sonra rayonlarda istehsal və sosial infrastruktur sisteminin yaradılmasında xeyli dərəcədə irəliləyiş baş verdi. Müvafiq dövrdə həmçinin rəqabət qabiliyyətli məhsulları istehsal edə bilən müəssisələrin yaradılması dövlətin regional siyasətinin prioritetini təşkil etmişdir. Məlum olduğu kimi ölkədə yerli rəqabət qabiliyyətli istehsal müəssisələrinin yaradılması həm ölkənin

daxili tələbatını ödənilməsi, həm də ixrac potensialının artırılmasına təsir göstərir.

Dövlətin regional siyasətinin əsas istiqamətlərindən biri də sahibkarlığın tarazlı və hərtərəfli inkişaf etdirilməsidir. Dövlət proqramında davamlı iqtisadi inkişafın təmin edilməsində kiçik və orta sahibkarlığın fəaliyyətin daha da genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Dövlət Proqramına uyğun olaraq dövlət büdcəsindən kiçik və orta sahibkarlığın inkişafına ayrılan vəsaitlərin həcminin daha da artırılması nəzərdə tutulur. Son illərdə ayrı-ayrı regionlarda sahibkarlığın inkişafı üçün dövlət investisiya şirkətinin xətti ilə iri layihələr maliyyələşədiriləcək və sahibkarlığa kömək milli fondu vasitəsilə güzəştli kreditlərin verilməsinə xüsusi diqqət yetirilmişdir. Göstərilən dövlət vəsaitlərindən səmərəli istifadə olunaraq sahibkarlığın bütün növlərinin (istehsal, kommersiya, innovasiya, vençur, maliyyə və s.) hərtəfəli inkişafına əlverişli mühit yaranmışdır.

“2019-2023-ci illərdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”nın tələb və prinsiplərinə uyğun ölkədə əsaslı dərəcədə irəliləyiş və dinamik artım özünü göstərsə də, gələcəkdə iqtisadiyyatın prioritet üstünlüklərindən daha səmərəli istifadə etmək məqsədilə bir sıra təklif və tövsiyyələrin nəzərə alınmasını məqsədəuyğun hesab etmək olar:

- respublikanın bütün iqtisadi rayonlarında KOS-ın inkişafı istiqamətində görülən tədbirlər gücləndirilməlidir;
- regional infrastruktur sisteminin formalaşması və əhalinin məşğulluq səviyyəsinin artırılmasına yönəldilmiş dövlət siyasətinə daha çox üstünlük verilməlidir;
- investorların regionlara cəlb olunması və KOS-ların fəaliyyətinin gücləndirilməsi istiqamətində onların səmərəli fəaliyyətinin təşkili üçün əlverişli investisiya mühiti yaradılmalıdır;
- regional sahibkarlığın inkişafına təkan vermək məqsədilə Azad İqtisadi Zonaların (AİZ) yaradılmasına xüsusi diqqət yetirilməlidir;
- regional iqtisadi təhlükəsizliyin təmin edilməsi dövlətin regional siyasətinin ana xəttini təşkil etməlidir və s.

Bölgələrdə sahibkarların əksəriyyəti üçün istehsal edilən məhsulların satışında müəyyən çətinliklər yaranır. Aqrar sektorda fəaliyyət göstərən sahibkarlıq subyektləri üçün vurğulanan məqamlar

daha xarakterikdir. Belə ki, sahə üzrə fəaliyyət göstərən iqtisadi subyektlərin əsasən kiçik və orta sahibkarlıq kateqoriyasına aid olması onların maliyyə təminatında mövcud olan yetərsizliklərilə də xarakterizə olunur. Bu isə öz növbəsində onların daha peşəkar fəaliyyət strukturu formalaşdırmalarına və bazarın araşdırılması üçün yetərli diqqət və maddi vəsaiti ayırmalarına manelər yaradır.

Kiçik və orta sahibkarlıq subyektlərinin regionlarda fəaliyyətinin genişləndirilməsi iqtisadiyyatın sağlamlaşdırılması üçün əlverişli şərait yaradılması labüddür. Yəni rəqabət mühitini formalaşdırılması yerli xammal resurslarından səmərəli istifadəni təşviq edir, əmək tutumlu sahələrin inkişafını təmin edir. Bəzi tədqiqatçıların fikrincə, bazar iqtisadiyyatı sisteminə keçən ölkələrdə KOS-un inkişafı ümumi daxili məhsulun istehsalının davamlı artırılması, büdcənin vergi gəlirlərinin formalaşdırılması və işsizlik səviyyəsinin aşağı salınmasında mühüm rol oynamaqla yeni iqtisadiyyata inteqrasiya prosesini sürətləndirir, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə və pul gəlirlərinin artırılmasına müsbət təsir göstərir.




**Şəkil 3. Azərbaycan Respublikasında 2022-ci ildə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq fəaliyyəti üzrə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin məhsul buraxılışının iqtisadi rayonlar üzrə strukturu**

*Mənbə: Diaqram Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi veb saytının www.stat.gov.az. məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Müasir iqtisadi şəraitdə həyata keçirilən iqtisadi siyasətin ən ümdə məqsədlərindən biri daxili tələbatı yerli istehsal imkanları hesabına ödəmək və yerli istehsalın rəqabətədavamlılığını yüksəltməklə ixrac potensialını artırmaqdan ibarətdir. Məhz bu baxımdan son illər respublikamızda neft sektorunun alternativlərinin artırılması və ixracın strukturunda iqtisadiyyatın müxtəlif sahələrinin payının yüksəldilməsi məqsədilə dövlətimiz tərəfindən zəruri addımlar atılmışdır. Xüsusilə bazar iqtisadiyytının əsas hərəkətvərici qüvvəsi olan sahibkarlıq subyektlərinin iqtisadi fəallığının yüksəldilməsi və onları təşviq edəcək mexanizmlərin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirləri bu aspektdən qiymətləndirmək olar.

Dünya təcrübəsi göstərir ki, aqrar-emal sahəsinin rəqabətədavamlı fəaliyyət mexanizminin təmin edilməsi üçün ilk növbədə mütərəqqi və balanslaşdırılmış formada bazar strukturlarının yaradılması tələb olunur. Bu isə öz növbəsində maliyyə-kredit, qiymət, mexanizmlərin yaradılması, uzunmüddətli proqnozlar, vergi, aqrar emal sahəsinin dövlət tənzimlənməsi, səmərəli sığorta sisteminin yaradılması, aqroemal sahəsinin inkişafina dövlət yardımının, xarici ixrac əlaqələrinin formalaşdırılmasının və s. bazar iqtisadiyyatı prinsipləri əsasında qurulması tələb olunur.

Avropa Birliyinə üzv ölkələrdə müəssisələr işə götürülmüş işçilərin sayına, illik dövriyyə və balans hesabatına görə təsnifləşdirilir. Lakin müəssisələr göstərilən müddət ərzində müəyyən edilmiş meyarları keçərsə, müəssisənin statusu dəyişmir. Avropa Birliyində şirkətlərdə çalışan şagird və ya tələbələr işçi sayılmır. İşçilərin meyarlarına "işçilər, müəssisə üçün işləyən və milli qanunvericiliyə uyğun işçi hesab edilən şəxslər, sahibkar-menecerlər və müəssisədə müntəzəm fəaliyyət göstərən və müəssisənin maliyyə üstünlüklərindən faydalanan tərəfdaşlar daxil edilir[4].

Aqrar sahədə sahibkarlıq və biznes fəaliyyətinin dəstəklənməsi digər sahələrin inkişafına da müsbət təsir göstərir. Belə ki, ölkə iqtisadiyyatının bütün sahələrinin kompleks formada inkişafı, daxili və xarici bazarların fəaliyyətinin səmərəlilik prinsipi əsasında

---

[4] Klapper, F.L. Small and Medium Size Enterprise Financing in Eastern Europe, Worldbank, 2017. - 687 pp

qurulması əhalinin zəruri ərzaq məhsullarına olan tələbatın ödənilməsi və aqrar sferada ardıcıl olaraq struktur siyasətinin aparılması dövlətin aqrar siyasətinin strateji xəttidir.

Kiçik və orta sahibkarlığa dövlət dəstəyinin səmərəli sisteminin formalaşdırılması ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir. KOS-lar geniş təbəqələrin həyat səviyyəsinin yüksəldilməsi üçün şəraiti təmin edir, yeni iş yerləri yaradaraq cəmiyyət üçün zəruri məhsullar və xidmətlər istehsal edir, eyni zamanda müxtəlif məhsulların istehlakçısı kimi çıxış edərək ölkənin və onun regionlarının iqtisadi inkişafına mühüm təsir göstərir. Kiçik müəssisələrin iqtisadi potensialının reallaşdırılması daha çox onların maliyyələşdirilməsinin imkanlarından və şərtlərindən asılıdır.

Qeyd etməliyik ki, ölkə pezidenti cənab İlham Əliyevin 1 avqust 2018-ci il tarixli “Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında” fərman imzalaması respublikamızda xüsusilə KOS-ların inkişafı istiqamətində atılmış mühüm bir siyasi addım kimi qiymətləndirilməlidir. Əminliklə deyə bilərik ki, bu fərmanın tələblərinin icrası sahibkarlığın inkişafına dəstək mexanizminin təkmilləşdirilməsi, qeyri-neft sektorunda innovativ texnologiyalara əsaslanan yeni istehsal, emal və infrastruktur müəssisələrinin yaradılması, ixrac əməliyyatlarının maliyyələşdiril məsi, real sektora investisiya qoyuluşlarının sürətləndirilməsi və özəl sektorda fəaliyyət göstərən təsərrüfat subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə əlverişli zəmin yaradacaqdır.

Araşdırmalar göstərir ki, aqrar sahədə istehsalın səmərililiyinin təmin edilməsində digər amillərlə yanaşı, kənd təsərrüfatında struktur dəyişikliklərinin də mühüm əhəmiyyəti vardır. Buna görə də kənd təsərrüfatında struktur dəyişiklikləri həyata keçirilərkən onun bütün cəhətləri hərtərəfli öyrənilməli, imkanlar reallıqlar nəzərə alınaraq düzgün qiymətləndirilməlidir. Bu baxımdan dövlətin tənzimləmə siyasəti müstəsna əhəmiyyət kəsb edir. Ümumiyyəylə, ölkə iqtisadiyyatının daxili və xarici destruktiv amillərin mənfi təsirlərindən qorunması, iqtisadiyyatda və ictimai həyatın digər sferalarında nizamın yaradılması baxımından dövlətin tənzimləyici

rolu xüsusi əhəmiyyətlidir. Aqrar sahədə dövlət tənzimlənməsini bir sıra amillər zəruri edir.

Aqrar bölmədə baş verən müxtəlif istiqamətli struktur dəyişiklikləri hər bir sahənin iqtisadi inkişafa təsir səviyyəsini müəyyənləşdirməyi vacib məsələlərdən biri kimi önə çəkir. Mövcud iqtisadi reallıqda təbiidir ki, istehsal sahələri bazarın tələbinə uyğunlaşdırılmağa çalışılır. Lakin elə hallar da müşahidə olunur ki, məhz bazarın tələb etdiyi sahə məhsullarının istehsalı bəzi hallarda da istehsalçının iqtisadi mənfəətini təmin etmir, bəzən isə ölkənin strateji maraqlarına uyğun gəlmir. Hazırda respublikanın aqrar bölməsində mövcud olan bir sıra problemləri (istehsal vasitələrindən istifadənin, idarəetmə səviyyəsinin aşağı səviyyədə olması, maliyyə vəsaitlərinin, ixtisaslaşmış kadrların çatışmazlığı, və s.) də nəzərə alsaq ölkənin iqtisadi mənafeyinə uyğun sahələrin müəyyənləşdirilməsi zəruri məslələrdən birinə çevrilir.

Üçüncü fəsil **"Aqrobiznes sektorunun inkişaf səviyyəsi: kiçik və orta sahibkarlıq fəaliyyətinin iqtisadi göstəricilərinin təhlili"**nə həsr edilir. Bu fəsildə aqobiznes sektorunda istehsalın mövcud vəziyyəti, kiçik və orta sahibkarlığın inkişaf perspektivləri təhlil edilir, kiçik və orta sahibkarlıq fəaliyyətini xarakterizə edən göstəricilərin dinamikası və ölkədə aqrar sahə məhsullarına olan tələbatının ödənilməsi səviyyəsi müəyyən edilir.

Hazırkı iqtisadi şəraitdə ölkəmizin istehsal sahələri üzrə resurs potensialı bir qədər yüksəlmiş, rəqabətqabiliyyətli məhsul istehsalı üçün imkanlar əvvəlki illərlə müqayisədə əhəmiyyətli dərəcədə artmışdır. Qeyd edək ki, son illərdə ölkəmizin iqtisadiyyatında tendensiya halını almış nailiyyətlərin fövqündə qazanılmış bu böyük uğur gələcəyə dair müsbət proqnozların reallaşdırılması ehtimalını bir qədər də yüksəltmişdir. Bu istiqamətdə mühüm məsələlərdən biri də iqtisadi diversifikasiyaya nail olmaq və neft amilinin iqtisadiyyatımda olan xüsusi çəkisini digər istehsal sahələrinin inkişafı konteksində bir qədər azaltmaqdan ibarətdir. Bu aspektdə strateji əhəmiyyətə malik aqrobiznesin imkanlarının daha da yüksəldiyini söyləyə bilərik. Təsadüfi deyil ki,son illər ölkə iqtisadiyyatı üçün önəmi daha da artan aqrobiznes sektoru və onun tərkibində fəaliyyət göstərən kiçik və orta sahibarlıq subyektlərinin inkişafının təmin edilməsi dövlət tərəfindən

həyata keçirilən sosial-iqtisadi siyasətin prioritetini təşkil etmişdir. Müvafiq dövrdə ölkə iqtisadiyyatında bir sahədən asılılığın aradan qaldırılması məqsədilə bazar iqtisadiyyatının əsas atributu olan sahibkarlıq fəaliyyətinin inkişafını sürətləndirən institusional mühit formalaşdırılmışdır. Bu isə öz növbəsində müasir texnologiyaların tətbiqi əsasında istehsal sahələrinin modernləşməsinə, yeni iş yerlərinin açılması ilə əmək bazarında dövrün tələblərinə uyğun kadrlara ehtiyacın artmasına və dolayısı ilə qeyri-neft sektorunun yüksəlişinə əlverişli zəmin yaratmışdır.

Müvafiq dövrdə yeni yaradılan təsərrüfatçılıq formaları arasında müəyyən əlaqə və münasibətlərin formalaşması prosesi genişləndirilərək getdikcə öz iqtisadi səmərəsini artırmışdır. Bu proseslər iqtisadiyyatın mühüm sahələrindən olan aqrobiznesdə də özünü göstərmişdir. Həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir ki, son on ildə bütün təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatı məhsulları dəyər ifadəsində artımına nail olounmuşdur. Belə ki, 2010-cu illə müqayisədə 2022-ci ildə bütün təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatı məhsulları istehsalında 2,8 dəfə artım qeydə alınmışdır. Müvafiq dövrdə bütün təsərrüfat kateqoriyaları üzrə bitkiçilikdə 2,8 dəfə, heyvandarlıqda isə 2,9 dəfə artım qiqqəti cəlb etmişdir. Qeyd edək ki, fərdi sahibkarlar ailə təsərrüfatları üçün də müqayisə olunan dövrdə yüksək artım 2,8 dəfə qeydə alınmışdır (cədvəl 1).

Hazırkı iqtisadi şəraitdə qeyri-neft sektorunun şaxələndirilməsi və inkişafı Azərbaycan dövlətinin inkişaf planlarında prioritetlərdən birini təşkil edir. Son illər hökumət tərəfindən həyata keçirilən iri miqyaslı dövlət proqramları da bilavasitə bu məqsədə xidmət etmişdir. Lakin etiraf etməliyik ki, inkişaf etmiş ölkələrlə müqayisədə KOS-ların Azərbaycan iqtisadiyyatı üçün yaratdığı əlavə dəyər hazırda tam olaraq arzu olunan səviyyədə deyildir. Bu göstəricilərin olmasını tam olaraq birmənalı qəbul etmək düzgün deyildir. Belə ki, mövcud göstəricilər ölkə iqtisadiyyatının hazırki inkişaf tendensiyaları ilə yanaşı bir sıra geosiyasi və qlobal səviyyədə baş verən proseslərin təsiri ilə də uzlaşır. Hesab edirik ki, bütün qeyd olunan məsələlərin fövqündə neft amilinin ölkə iqtisadiyyatına təsir səviyyəsini və ÜDM istehsalında iri müəssisələrin xüsusi çəkisinin yüksək olmasını kiçik

və orta sahibkarlığın nisbətən kölgədə qalmasına səbəb olan əsas amillər kimi qiymətləndirmək lazımdır.

**Cədvəl 1**

**Azərbaycan Rspublikasında təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatı məhsullarının istehsalı (faktiki mövcud qiymətlərlə, mln. manatla)**

| Göstəricilər | İ l l ə r | | | | | | 2010-cu illə müqayisədə 2022-ci ildə, artım (+) azalma (-) |
|---|---|---|---|---|---|---|---|
| | 2010 | 2015 | 2018 | 2020 | 2021 | 2022 | |
| Bütün təsərrüfat kateqoriyaları üzrə cəmi | 3877,7 | 5635,3 | 7010,0 | 8428,9 | 9163,4 | 10984,2 | + 2,8 dəfə |
| Bitkiçilik | 1999,2 | 2761,1 | 3186,0 | 4028,4 | 4511,0 | 5538,0 | + 2,8 dəfə |
| Heyvandarlıq | 1878,5 | 2874,2 | 3824,0 | 4400,5 | 4652,4 | 5446,2 | + 2,9 dəfə |
| Kənd təsərrüfatı müəssisələrində və sair təşkilatlarda: Cəmi | 192,6 | 410,1 | 660,9 | 834,5 | 885,9 | 1094,0 | +5,6 dəfə |
| Bitkiçilik | 60,0 | 132,5 | 262,1 | 438,3 | 467,3 | 509,2 | +8,5 dəfə |
| Heyvandarlıq | 132,6 | 277,6 | 398,8 | 396,2 | 418,6 | 584,8 | +4,4 dəfə |
| Fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları: Cəmi | 3685,1 | 5225,2 | 6349,1 | 7594,4 | 8277,5 | 9890,2 | +2,7 dəfə |
| Bitkiçilik | 1939,2 | 2628,6 | 2923,9 | 3590,1 | 4043,7 | 5028,8 | +2,6 dəfə |
| Heyvandarlıq | 1745,9 | 2596,6 | 3425,2 | 4004,3 | 4233,8 | 4861,4 | +2,8 dəfə |

*Mənbə: Diaqram Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi veb saytının www.stat.gov.az. məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Aqrobiznesdə kiçik və orta sahibkarlığın səmərəliliyinin artırılması çoxşaxəli bir problemdir və onun onun həlli iqtisadi, sosial və institusional amillərin kompleks birləşməsindən asılıdır. Azərbycan

respublikası müstəqillik dönəmindən sonrakı 20 ildə inzibati sistemdən bazar iqtisadiyyatına keçid mərhələsi kənd təsərrüfatında mürəkkəb vəziyyətin yaranmasına səbəb olmuş son on ildə isə yaranmış problemlər müəyyən səviyyədə aradan qaldırılmış və sahə üzrə iqtisadi göstəricilər nisbətən yüksəliş mərhələsinə keçmişdir[5]. Bu proseslərlə yanaşı onu da vurğulamayılıq ki, kənd təsərrüfatı və onun tərkibində fəaliyyət göstərən subyektlər iqtisadiyyatın inkişaf səviyyəsindən və digər sahələrdə yaranmış iqtisadi münasibətlərin xüsusiyyətindən asılı olmayaraq hər zaman himayəyə və dəstəyə daha çox ehtiyac duyur. Xüsusilə özünəməxsus xüsusiyyətləri ilə müəyyən edilən kiçik sahibkarlığın inkişafı dövlət dəstəyi və dövlət tənzimlənməsi olmadan mümkün deyildir.

Araşdırmalardan məlum olur ki, 2010-cü ildə Azərbaycan Respublikasında kiçik sahibkarlıq subyektləri iqtsadiyyatın bütün sahələri üzrə 186 min 898 sayda olmuşdur. Kiçik sahibkarlıq subyektlərinin sayı 2014-ci ildə 2013-ci ilə nisbətən təxminən 21 min 521 qədər artmışdır. Lakin bu göstərici 2010-cu ilin məlumatları ilə müqayisədə 9,8 % azdır. Araşdırmalar göstərir ki, son illərdə Azərbaycanda makroiqtisadi göstəricilərin inkişafı kiçik sahibkarlıq subyektlərinin statistik məlumatlarında da öz əksini tapmışdır. Belə ki, 2022-ci ildə 2010-cu illə müqayisədə kiçik sahibkarlıq subyektlərinin orta aylıq nominal əmək haqqı 89,6 % artmışdır. Yaradılmış əlavə dəyər 90,2% artmış, istehsal və əsas kapitala yönləndirilən investisiyaların miqdarı isə 96,3% artmışdır. Müvafiq dövrdə kiçik təsərrüfat subyektlərinin sosial səmərəsi də nəzərə çarpacaq dərəcədə artmışdır (cədvəl 2).

Hazırda dövlət mövcud strukturun elm və innovasiya tutumu daha böyük olan sənaye sahələrində kiçik müəssisələrin sayını və keyfiyyətinin artımınını təmin etməyi qarşıya məqsəd qoymuşdur. Lakin, kiçik sahibkarlıq subyektləri üçün aparılan təhlil nəticəsində üzə çıxarılan iqtisadi meyllərin orta sahibkarlıq üçün tutarlı olmasını qəbul etmək olar. Hazırda ölkəmizdə qeyri neft sektorunun inkişafı kontekstində iqtisadiyyatın şaxələndirilməsi mühüm vəzifə kimi

[5] Ataşov, B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri / B.X.Ataşov. – Bakı: Kooperasiya, – 2017. – 536 s.

**Cədvəl 2**

**Azərbaycan Respublikasında kiçik sahibkarlıq subyektlərinin əsas makro-iqtisadi göstəriciləri**

| Göstəricilər | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2010 | 2019 | 2020 | 2021 | 2022 | 2010-cu illə müqayisədə 2022-ci ildə % lə |
| Yaradılmış əlavə dəyər, milyon manat | 1466,2 | 1423,2 | 1617,9 | 2384,3 | 2.796,1 | 190,2 |
| İşçilərin orta illik sayı, min nəfər | 109,0 | 85,1 | 92,1 | 102,2 | 104,8 | 96,1 |
| Orta aylıq nominal əmək haqqı, manat | 303,5 | 437,0 | 533,8 | 528,2 | 575,6 | 189,6 |
| Əsas kapitala investisiyalar, milyon manat | 486,5 | 494,2 | 380,4 | 892,7 | 955,1 | 196,3 |

*Mənbə: Diaqram Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi veb saytının www.stat.gov.az. məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

qarşıya qoyulmuşdur. Bu şaxələndirmə zamanı iqtisadiyyatın əsas aparıcı sektorlarının müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir. Qənaətimizə görə, Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin səmərəli fəaliyyət göstərə biləcəyi əsas aparıcı sektorlara (daha əmək tutumlu sektor) kənd təsərrüfatı, tikinti və turizm sahələrini aid etmək olar.

Ölkə iqtisadiyyatının hazırkı mərhələsində kənd təsərrüfatında kiçik və orta sahibkarlığın inkişafı ərzaq təminatının yaxşılaşdırılmasına da müsbət tövhələr verir. Bir mənalı şəkildə qeyd edə bilərik ki, ərzaq təminatının yaxşılaşdırılması kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlıq qurumlarının inkişafına əlverişli şərait yaradılmasından bilavasitə asılıdır. Məlum olduğu kimi əhalinin ərzaq məhsulları ilə təminatı sistemində istehsalın stimullaşdırılması və daxili bazarın qorunması məsələləri xüsusilə mühüm önəm daşıyır. Bu isə onunla bağlıdır ki, yerli əmtəə istehsalçıları sahənin spesifik xüsusiyyətləri, o cümlədən risklərin səviyyəsinin yüksək olması, təbii-

iqlim faktorunun yetərli rol oynaması baxımından, bütövlükdə bazar mexanizminin xarakterik xüsusiyyətlərinə cavab vermək iqtidarında olmurlar.

**Cədvəl 3**

**Azərbaycanda əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi, (%-lə)**

| Məhsullar | İllər | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 2015 | 2016 | 2017 | 2018 | 2020 | 2021 | 2022 |
| Dənlilərin cəmi | 64,5 | 63,8 | 66,3 | 74,1 | 68,1 | 73,7 | 69,0 |
| buğda | 54,8 | 52,9 | 58,1 | 64,8 | 57,1 | 61,5 | 56,7 |
| arpa | 95,1 | 101,7 | 94,4 | 103,1 | 94,6 | 101,9 | 101,2 |
| qarğıdalı | 54,1 | 71,1 | 70,7 | 82,7 | 86,6 | 93,6 | 78,0 |
| vələmir | 93,1 | 85,7 | 90,1 | 89,2 | 86,6 | 88,5 | 87,2 |
| sair növ dənlilər | 6,3 | 32,0 | 20,4 | 82,3 | 93,9 | 26,7 | 21,7 |
| Paxlalılar | 69,3 | 68,4 | 73,7 | 72,0 | 60,3 | 56,4 | 61,5 |
| Kartof | 89,1 | 85,5 | 89,2 | 90,8 | 90,6 | 88,8 | 89,0 |
| Bütün növ tərəvəz | 103,4 | 105,4 | 115,2 | 115,0 | 110,4 | 106,6 | 106,8 |
| Bostan məhsulları | 100,0 | 100,2 | 100,2 | 99,7 | 100,8 | 102,6 | 103,2 |
| Meyvə və giləmeyvə | 113,7 | 116,4 | 122,4 | 123,2 | 116,3 | 122,9 | 123,9 |
| Üzüm | 93,1 | 89,2 | 93,4 | 92,5 | 95,8 | 94,4 | 94,8 |
| Bütün növ mal-qara və quş əti | 91,8 | 92,4 | 84,7 | 82,7 | 84,5 | 86,4 | 86,0 |
| mal əti və ət məhsulları | 92,6 | 86,3 | 86,3 | 85,1 | 87,4 | 91,9 | 93,0 |
| qoyun (keçi) əti və ət məhsulları | 98,5 | 97,7 | 98,0 | 98,1 | 84,5 | 98,2 | 97,0 |
| quş əti və ət məhsulları | 87,8 | 98,5 | 79,7 | 75,9 | 79,0 | 79,6 | 74,6 |
| Süd və süd məhsulları | 72,5 | 76,0 | 86,1 | 86,7 | 83,5 | 84,8 | 78,5 |
| Yumurta | 96,2 | 100,0 | 100,5 | 101,5 | 100,0 | 99,1 | 83,3 |

*Mənbə: Diaqram Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi veb saytının www.stat.gov.az. məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Aqrar sahədə dövlətimiz tərəfindən son illər aparılan məqsədqönlü islahatlar nəticəsində ən aktual problemlərdən hesab olunan ərzaq təminatı ilə bağlı müsbət nəticələr qeydə alınmışdır. Tədqiqatımız

nəticəsində məlum olmuşdur ki, ölkəmizdə 2022-ci ildə arpa istehsalında 101,2% bostan məhsullarında 103,2 %; bütün növ tərəvəz məhsullarında 106,3 %; meyvə və gilə meyvə istehsalında 123,9 % özünü təmin etmə səviyyəsi ilə daxili tələbat tam olaraq ödənilmişdir. Digər məhsullarda isə buğda istehsalında 56,7%; qarğıdalı istehsalında 78%; kartof istehsalında 79% özünü təmin etmə səviyyəsinə nail olunmuşdur. Ət və süd məhsullarında isə özünü təmin etmə səviyyəsi mal əti və ət məhsullarında 93%; qoyun və keçi ətində isə 97,0 % daxili istehsal hesabına ödənmişdir. Təbii ki, əldə olunan müsbət göstəricilərə baxmayaraq hələ də ərzaq təyinatlı kənd təsərrüfatı məhsullarının təqribən 25 % -i MDB başda olmaqla bir çox ölkədən idxal olunur.

Ərzaq təminatını yaxşılaşdırmaq məqsədi ilə kənd təsərrüfatı əmtəə istehsalçılarının satış problemlərinin səmərəli həlli təmin edilməli, bu istiqamətdə ərzaq bazarının infrastrukturları formalaşdırılmalı, topdansatış bazarları, eləcə də kənd təsərrüfatı məhsullarının satış birjaları, saxlama kameraları yaradılmalıdır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, ərzaq təminatı sisteminin ən mühüm göstəricilərindən biri olan əhalinin ərzaq məhsulları ilə özünü təmin etmə səviyyəsinin yüksəldilməsi ərzaq mübadiləsi sisteminin yaxşılaşdırılmasını da tələb edir[6].

Ərzaq təminatı sistemi, kifayət qədər makroiqtisadi bir problem kimi şərtlənməkdədir. Bu isə onunla bağlıdır ki, ərzaq təminatı sistemində daxili bazarın çevik şəkildə qorunmaması ölkənin ərzaq idxalından asılılığın yaranmasına gətirib çıxarır. Məhz bunun nəticəsidir ki, bir sıra hallarda dünya bazarında ərzaq məhsullarının qiymətlərinin artması ölkənin ərzaq bazarına da təsirsiz ötüşmür. Xüsusilə yeyinti məhsullarına olan ehtiyacların ödənilməsində xaricdən gətirilən yeyinti məhsullarının rolu əhəmiyyətlə dərəcədə yüksəkdir. Bu isə ərzaq bazarında qiymət tərəddüdlərinin yaşanmasına və əhalinin yüksək qiymətə qida məhsulları əldə etməsinə səbəb olur. Odur ki, dünya ərzaq bazarında baş verən konyunktur dalğalanmalarından yerli ərzaq bazarını səmərəli şəkildə müdafiə

---

[6] Qarayev, İ.Ş. Aqrobiznes və ərzaq təhlükəsizliyi. Dərslik / İ.Ş.Qarayev – Bakı: İqtisad Universiteti Nəş, – 2015. – s. 76-80.

etmək məqsədilə, idxalı əvəz edən sahələrdə inkişafa nail olunması vacib şərtlərdəndir. Hər bir ölkədə ərzaq məhsullarının qıtlığı və istehlak bazarında kəskin qiymət artımının baş verməsi fonunda cəmiyyətdə yarana biləcək ziddiyyətlərin vətəndaş sülhünün və sabitliyin pozulmasına gətirib çıxarması kənd təsərrüfatının siyasi əhəmiyyətini səciyyələndirir. Kənd təsərrüfatının strateji əhəmiyyəti isə onun bilavasitə dövlətin ərzaq müstəqilliyinin təmin edilməsində önəmli, daha doğrusu əvəzedilməz maddi istehsal sferası kimi çıxış etməsi ilə xarakterizə olunur.

Dördüncü fəsil **“Aqrobiznes sektorunda kiçik və orta sahibkarlığın inkişafının təşkilati-iqtisadi problemləri”** adlanır. Bu fəsildə aqobiznesdə loqistik sistemlərin və innovasiya infrastrukturunun formalaşmasının zəruriliyi, aqrobiznes sektorunda klasterlərin yaradılmasının KOS-ın inkişafında rolu, aqrobiznes sektorunda kiçik və orta sahibkarlığın inkişafının əmək bazarının strukturuna təsiri, aqrobiznesin və KOS-ların inkişafında investisiya cəlbediciliyinin artırılmasının zəruriliyi məsələləri əsaslandırlır.

İnfrasrtruktur hər zaman kənd təsərrüfatının inkişafında mühüm faktorlardan hesab edilib. Dünya təcrübəsi göstərir ki, aqrobiznesin səmərəli inkişaf mexanizminin təmin edilməsi üçün ilk növbədə mütərəqqi və balanslaşdırılmış formada bazar strukturlarının yaradılması tələb olunur. Logistika bu baxımdan tədarük zəncirinin ən vacib bölməsini təşkil edir. Əslində logistika məhsulların, xidmətlərin və əlaqəli informasiyaların istehsaldan istehlaka qədər səmərəli axınını və saxlanılmasını planlaşdıran və idarə edən tədarük zəncirinin mühüm mərhələsidir. Logistika fəaliyyətinin əsas məqsədi məhsul və ya xidmətləri (xammal, yarımfabrikat və köməkçi materiallar) zərurət yarandığında, ən uyğun şərtlərlə, ən aşağı qiymətə və ən düzgün zamanda çatdırmaqla, müəssisənin mənfəətini artırmaq, rəqabət üstünlüyünü və müştəri məmnuniyyətini təmin etməkdir.

Aqrobiznes sektorunda təsərrüfat subyektlərinin innovasiya meyillərinin yüksəldilməsi kiçik və orta sahibkarlıq subyektləri ilə iri dövlət müəssisələri və özəl təsərrüfatlar arasında əlaqələrin möhkəmləndirilməsini zərurətə çevirir. Qeyd olunan məsələləri əsas götürsək istehsal imkanlarının genişləndirilməsinə və iqtisadi subyektlərin inkişafına təkan verən mühüm təşkilati struktur kimi

klasterlərin yaradılması sahə üzrə əhəmiyyətli ola bilər. Klasterlər - eyni və ya bənzər sektorda fəaliyyət göstərən, əlaqəli və bir-birini tamamlayıcı fəaliyyət sahələrinin müəyyən coğrafi bölgədə yerləşməsi ilə meydana gələn, ümumi infrastruktur, texnologiya, vahid bazar, işçi qüvvəsi və xidmətləri paylaşaraq qarşılıqlı ticarət əlaqələrinin qurulması, kommunikasiya və qarşılıqlı dialoq imkanlarına malik olan sahibkarlıq subyektlərindən ibarət sistemlərdir. Klasterlər mahiyyət etibarı ilə kiçik və orta sahibkarlar arasında həm rəqabət, həm də əməkdaşlığın eyni zamanda təmin edilməsinə şərait yaradır.

Klasterial inkişaf üçün daha böyük rəqabət üstünlüyünə malik sahələrin müəyyənləşməsi zamanı, ilk növbədə klasterin istiqaməti müəyyən olunmalıdır. Klasterin fəaliyyətinin kadr təminatının konseptual əsaslarının yaradılması-bütün təhsil səviyyələrində motivasiyanın gücləndirilməsi, yüksək təhsil standartlarının hazırlanması, təhsil mərkəzlərində klasterial inkişafla adekvatı informasiya təminatının formalaşdırılması, işəgötürənlər və təhsil müəssisələri arasında səmərəli qarşılıqlı əlaqə mexanizminin yaradılması kimi konseptual məsələlərin həllini tələb edir. Elmi-texniki siyasətin həyata keçirilməsinin səmərəli mexanizminin formalaşdırılması üçün həmin siyasətlə ölkənin rəqabətqabiliyyəti arasında əlaqənin xarakteri açıqlanmalı, elmi tədqiqat mərkəzlərinə (o cümlədən, ali təhsil müəssisələrində) dövlət himayəsi mexanizmi təkmilləşdirilməli, onlarla klasterin müəssisələri arasında səmərəli qarşılıqlı əlaqələr yaradılmalı, klasterə aid müəssisələrdə elmi tədqiqatların həvəsləndirilməsi üçün mexanizm formalaşdırılmalıdır[7].

Hazırkı iqtisadi şəraitdə respublikamızda iqtisadi diversifikasiyaya nail olmaqla qeyri-neft sektorunun ÜDM istehsalında payını artırmaq dövlətin həyata keçirdiyi iqtisadi siyasətin prioritetini təşkil edir. Bu aspektdə iqtisadi sahələrdən asılı olmayaraq biznes mühitinin dəstəklənməsi kiçik və orta sahibkarlığın inkişafını təmin edəcək infrastukturun təmin olunması, strateji sahələrdən biri kimi aqrobiznes sektorunda rəqabətqabiliyyətli istehsalın təşviqini şərtləndirir.

---

[7] Quliyev, E.A. Etibarlı ərzaq təminatında kooperasiya və inteqrasiya problemləri. Monoqrafiya. Bakı: Elm", 2013, 151.

Müasir dövrdə KOS-ın fəaliyyətinə əmək bazarında mövcud olan bütün qaydalar və dövlət tərəfindən həyata keçirilən tənzimlənmə siyasəti geniş təsir göstərir. Belə ki, məşğulluğu yüksəltmək, insan kapitalını gücləndirmək və əmək bazarı ilə bağlı alınmış bütün qərarlar KOS-lara birbaşa təsir edir. Anoloji vəziyyət KOS-ların ən geniş yayıldığı aqrobiznes sektoru üçün də xarakterikdir.

Hazırda əmək bazarında mövcud olan iqtisadi fəal əhalinin böyük bir qismi kənd təsərrüfatında fəaliyyət göstərir. Müstəqillik dövründən bu günə qədər bu göstəricidə heç bir dəyişiklik baş verməmişdir.Araşdırmalar göstəriri ki, son 20 ildə aqrar sahədə fəaliyyət göstərən məşğul əhali ölkə üzrə iqtisadi fəal əhalinin orta hesabla 35-40% təşkil etmişdir. Müvafiq göstərici 2022-ci ildə 35,8% təşkil etmişdir. Lakin sahə üzrə əmək məhsuldarlığının səviyyəsi elə də yüksək deyil.




**Qrafik 1. Azərbaycan respublikasında məşğul əhalinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsə, %-lə**

*Mənbə: Diaqram Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi veb saytının* *<u>www.stat.gov.az.</u>* *məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Aqrar sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinin əsasən kiçik və orta ölçülü sahibkarlıq kateqoriyasına aid olması onların sahə üçün tələb olunan böyük məbləğdə vəsaitin əldə olunmasında imkanarının yetərsizliyinə dəlalət edir. Aqrar sahədə kiçik və orta sahibkarlığın dəstəklənməsi yalnız sahibkarların istehsal imkanlarının yüksəldilməsinə xidmət etmir, eyni zamanda ölkədə mövcud olan əmək rəsurslarının təqribən 40%-ni təşkil edən bir sahənin yüksəlişi təkan verir ki, bu isə sosial-iqtisadi aspektdən son dərəcə mühüm məsələdir.[8]

Hazırda qlobal səviyyədə əsas problemlərdən olan qida təhlükəsizliyinin təmin olunması baxımından dünyanın inkişaf etmiş ölkələrində aqrobiznes sektorunun inkişafı istiqamətində zəruri tədbirlər həyata keçirilir və bu tədbirlərlərin əsasını çoxşaxəli investisiya proqramları təşkil edir. Bu baxımdan respublikamızda da son iyirmi ildə dövlət tərəfindən məqsədyönlü tədbirlər həyata keçirilmiş və proses bu gündə yüksələn şkala üzrə davam etdirilir. Bu aspektdə hər bir dövlət həyata keçirdiyi investisiya siyasəti daha da önəm qazanmış və mühüm xüsusiyyətləri özündə təzahür etmişdir. Bilindiyi kimi böhran və fövqəlada halların yarandığı dövrdə bu neqativ meyillərdən ən çox təsirlənən daha çox kiçik və orta ölçülü təsərrüfat qurumlarıdır. Neqativ meyillərə baxmayaraq aqrobiznes sektorunun infrastruktur təminatının yaxşılaşdırılması, kiçik və sahibkarlıq sahibkarlıq subyektlərinin maliyyə dayanaqlığının artırılması ölkənin iqtisadi təhlükəsizliyinin yüksəldilməsi baxımından investisiya qoyuluşlarının artırılmasını şərtləndirir. Araşırmalardan məlum olur ki, dünya təcrübəsində aqrar istehsal sahələrində innovasiyanın tətbiq səviyyəsi modernizasiyanın əsas elementlərindən biri kimi xüsusi çəkiyə malikdir. Respublikamız isə bu tendensiyalardan xeyli geri qalır. Təkcə bir faktı qeyd etmək olar ki, 2019-cı ildə kənd təsərrüfatına 617,8 mln manatlıq investisiya qoyulmuşdur ki, bu da milli iqtisadiyyatda əsas kapitala yatırılmış məcmu investisiyanın 4,1 %-ni təşkil etmişdir. 2010-2020-ci illər ərzində kənd təsərrüfatına investsiya qoyuluşlarının məcmu

---

[8] İbrahimov, İ.H. Aqrar sahənin iqtisadiyyatı. Monoqrafiya / İ.H.İbrahimov – Bakı, 2016.

investisiya qoyuluşlarında xüsusi çəkisi maksimum 4.4%-i ötməmişdir Ərzaq təminatını yaxşılaşdırmaq məqsədi ilə kənd təsərrüfatı əmtəə istehsalçılarının satış problemlərinin səmərəli həlli təmin edilməli, bu istiqamətdə ərzaq bazarının infrastrukturları formalaşdırılmalı, topdansatış bazarları, eləcə də kənd təsərrüfatı məhsullarının satış birjaları, saxlama kameraları yaradılmalıdır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, ərzaq təminatı sisteminin ən mühüm göstəricilərindən biri olan əhalinin ərzaq məhsulları ilə özünü təmin etmə səviyyəsinin yüksəldilməsi ərzaq mübadiləsi sisteminin yaxşılaşdırılmasını da tələb edir.

**Cədvəl 4.**

**Azərbaycan Respublikasında kənd təsərrüfatına investisiya qoyuluşlarının dinamikası**

| İllər | Əsas kapitala yönəldilmiş investisiyalar | | Kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı | |
|---|---|---|---|---|
| | Mln manat | Xüsusi çəkisi, faizlə | Mln manat | Xüsusi çəkisi, faizlə |
| 2005 | 5769.8 | 100 | 40.6 | 0.7 |
| 2010 | 9905.7 | 100 | 431 | 4,4 |
| 2015 | 16772,8 | 100 | 325,1 | 2,1 |
| 2017 | 17430,3 | 100 | 617,8 | 3,5 |
| 2018 | 17244,9 | 100 | 764,4 | 4,4 |
| 2019 | 18539,5 | 100 | 769,5 | 4,2 |
| 2020 | 17 226,1 | 100 | 520,6 | 3,0 |
| 2021 | 16815,5 | 100 | 341,9 | 2,0 |
| 2022 | 17878,2 | 100 | 408,0 | 2.3 |
| 2005-ci illə müqayisədə 2022-ci ildə,%-lə | 3,1 dəfə | x | 10,0 dəfə | x |
| 2021-cu illə müqayisədə 2022-ci ildə,%-lə | 106,3 | x | 119,3 | x |

*Mənbə: Diaqram Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi veb saytının www.stat.gov.az. məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Araşırmalardan məlum olur ki, dünya təcrübəsində aqrar istehsal sahələrində innovasiyanın tətbiq səviyyəsi modernizasiyanın əsas

elementlərindən biri kimi xüsusi çəkiyə malikdir. Respublikamız isə bu tendensiyalardan xeyli geri qalır. Təkcə bir faktı qeyd etmək olar ki, 2022-ci ildə kənd təsərrüfatına 17878,2 mln manatlıq investisiya qoyulmuşdur ki, bu da milli iqtisadiyyatda əsas kapitala yatırılmış məcmu investisiyanın 4,1%-ni təşkil etmişdir. 2015-2022-ci illər ərzində kənd təsərrüfatına investsiya qoyuluşlarının məcmu investisiya qoyuluşlarında xüsusi çəkisi maksimum 3,5%-i ötməmişdir.

Aqrobiznes sektorunda investisiya siyasətinin təkmilləşdirilməsinə makroiqtisadi cəhətdən yanaşılmalıdır. Nəzərə almaq lazımdır ki, investisiya fəaliyyətinin aktivləşdirilməsi sahənin rəqabətqabiliyyətli istehsal imkanlarının yüksəlməsinə, daxili istehlak tələbatının ödənilməsinə, ölkədə aqrar səhənin ÜDM istehsalında xüsusi çəkisinin artmasına şərait yaradır. Aqrar sahəyə investisiya qoyuluşları sahənin infrastruktur ehtiyacının qarşılanmasında da mühüm rol oynayır. Xüsusilə aqrar istehsalın inkişafında mühüm rol oynayan maddi-yexniki vəsaitlərin əldə olunması, texnopark və aqroparkların kimi infrastruktur xidmətlərinin sahibkarların şəxsi imkanları hesabına qurulması çox müşkül məsələdir. Bu baxımdan inkişaf səviyyəsindən asılı olmayaraq bütün dövlətlərdə aqrar sahənin istehsal infrastrukturunun təkmilləşdirilməsində rol oynayan investisiyalar bilavasitə dövlət tərəfindən həyata keçirilir.

Aqrobiznesə dövlət yardımının səmərəliliyinin yüksəldilməsi məqsədli investisiya proqramlarının reallaşdırılmasını tələb edir. Bunun üçün kənd təsərrüfatı məhsulları istehsalı üçün zəruri olan investisiyaların həcmi müəyyənləşdirilməli və tələb olunan investisiya resursları sahəyə yönəldilməlidir. məqsədli investisiya proqramlarının müvəffəqiyyətlə reallaşdırılması üçün vacib şərtlərdən biri də, elektrik enerjisi, su və digər kommunal resursların qiymətləri üzərində nəzarətin gücləndirilməsi tələb olunur. Təbii ki, bütün bunlar məhsul istehsalına çəkilən xərclərin aşağı salınması üçün başlıca resurs hesab edilir. Bütün bunlar isə, öz növbəsində kənd təsərrüfatı ilə sənaye məhsulları arasında qiymət paritetinə nail olunmasında da önəmli rol oynaya bilər. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, yerli istehsalın davamlı artımının təmin edilməsi üçün əlverişli şəraitin yaradılması, investisiya proseslərinin reallşadırılmasından başlanır.

Daha doğrusu, investisiya prosesləri son istehlak tələbatını yönləndirən sahələrdə reallaşdırılmalıdır.

Aparılan araşdırmalar göstərir ki, aqrobiznes sektoruna investisiyaların artırılması üçün zəruri təşkilati-institusional proqramlar reallaşdırılmalıdır. aqrobiznes sektorunada təşkilati-institusional proqramların reallaşdırılması torpaq sahiblərinin sərəncamında olan torpaq resurslarının genişləndirilməsi ilə şərtlənməlidir. Torpaq resurslarının genişləndirilməsi kooperativ təsərrüfatlarının yaradılmasını zərurətə çevirir. Təbii ki, bütün bunlar əmtəə istehsalçıları ilə emal müəssisələri arasında inteqrasiya münasibətlərinin inkişaf etdirilməsinə və eləcə də kənd təsərrüfatına investisiya qoyuluşlarının artırılmasında da önəmli rol oynaya bilər. Bu baxımdan xarici investorların cəlb edilməsi üçün də torpaq resurslarının iriləşdirilməsi, daha doğrusu iri təsərrüfat subyektlərinin yaradılmasına xüsusi önəm verilməlidir.

Aparılan araşdırmalardan belə qənaətə gəlmək olar ki, ölkədə aqrobiznes sektorunda dayanaqlı inkişafın təmin təmin edilməsi məqsədi ilə dövlətin investisiya siyasətinin aktivləşdirilməsi mühüm əhəmiyyət kəsb edir və bundan əlavə istər kənd təsərrüfatında maliyyə nəticələrinin yaxşılaşdırılması, istərsə də məqsədli maliyyələşdirmə proqramlarının reallaşdırılması hesabına daxili bazarda yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsi və xarici bazarlara rəqabətədavamlı məhsulların çıxarılmasının təmin edilməsi ilə bağlı zəruri tədbirlər reallaşdırılamlıdır ki, bu da aqrar sahənin rəqabət imkanlarının yüksəldilməsi baxımından son dərəcə əhəmiyyətli rol oynayacaqdır.

Beşinci fəsildə **“Aqrobiznes sektorunda kiçik və orta sahibkarlığın inkişafının prioritet istiqamətləri”** müəyyən edilməklə aqrobiznes sektorunda KOS-ların fəaliyyətinin iqtisadi səmərəliliyinin yüksəldilməsi istiqamətləri, aqrobiznesdə KOS-ların bazara çıxış imkanlarının genişləndirilməsi, istehsal-satış əlaqələrinin tənzimlənməsi, aqrobiznesdə KOS-ların ixrac potensialının yüksəldilməsinin prioritetləri, aqrobiznesdə kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə təminatının gücləndirilməsi istiqamətləri və Strateji yol xəritəsində müəyyən edilən Azərbaycan iqtisadiyyatında kiçik və orta sahibkarlığın payının artırılması perspektivləri əksini tapır.

Sahibkarlığın inkişafı şəraitində istehsalın iqtisadi səmərəliliyini xarakterizə edərkən, ilk növbədə, sahibkarlıq qurumlarının səmərəli fəaliyyət göstərmək imkanları araşdırılmalıdır. Qeyd etmək lazımdır ki, hər hansı bir fəaliyyətin səmərəsi, ilk növbədə, həmin fəaliyyətin həyata keçirilməsinin nəticəsini özündə əks etdirir və dəyər ifadəsində sərf olunan xərcin müqabilində əldə olunan mənfəətin məbləğini özündə əks etdirir. Kənd təsərrüfatı məhsulları istehsalının iqtisadi səmərəliliyi dedikdə isə - məhsul istehsalına az məsarif xərclənməsi hesabına yüksək həcmdə mənfəət əldə olunması başa düşülür. Təbii ki, bütün bunlar bazarda baş verən konyunktur dəyişikliklərindən də əhəmiyyətli dərəcədə asılıdır. Əvvəlki təsərrüfatçılıq sistemində kənd təsərrüfatı məhsullarının iqtisadi səmərəliliyi də həmin meyar əsasında müəyyənləşdirilməsinə baxmayaraq, lakin bazarda qiymətlərin səviyyəsi, demək olar ki, fiksasiya olunmuş qaydada müəyyənləşdirilirdi və bu isə kənd təsərrüfatında fəaliyyət göstərən təsərrüfat subyektlərinin bazarı öyrənməsinə elə bir ehtiyac qoymurdu.

Aqrar sahədə fəaliyyət göstərən sahibkarlıq qurumlarının təsərrüfat fəaliyyətinin inkişafında marketinq alətindən istifadə səviyyəsidə əhəmiyyətli rol oynayır. Məlum olduğu kimi, bazar münasibətlərinə keçidlə əlaqədar marketinq xidmətinin təşkili xüsusilə mühüm önəm daşıyır və marketinq xidməti məhsulun istehsalçılardan istehlakçılara çatdırılmasına qədərki bütün mərhələlərdə zəruri xidmət sferasını özündə əks etdirir. Bu xidmət istər istehsalçıların və istərsə də istehlakçıların maraqlarının təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Marketinq xidmətinin səmərəli təşkili bu və ya digər məhsula olan tələb nəzərə alınmaqla, istehsal olunan məhsulun səmərəli reallaşdırılmasında əlverişli şərait yaradır.

Marketinq xidmətinin təşkili baxımından, bölgə strategiyası da önəmli rola malikdir. Bölgə strategiyası, əsas etibarilə, istehlakçıların bu və ya digər məhsullara olan tələbatını zamanında və kokret məkan daxilində reallaşdırmağa imkan verir. İnkişaf etmiş ölkələrdə bölgə strategiyasını formalaşdırarkən kənd təsərrüfatı məhsulların istehsalçılardan istehlakçılara çatdırılması ilə bağlı optimal sxem seçilir və həmin sxem, əsas etibarilə, nəqliyyat, saxlanma, məhsulun daşınması ilə bağlı sahələri əhatə etməklə məhsulun istehlakçılara zamanında və keyfiyyətli şəkildə çatdırılmasını təmin edir. Marketinq

xidmətinin təşkili ilə bağlı aqrar əmtəə istehsalçılarının rastlaşdıqları problemlərdən ən başlıcası, onların həmin məhsulların daxili və xarici bazarlarda davamlı şəkildə hərəkətinin təmin edilməsidir.

Aqrobiznes sistemində hər bir əmtəə dövriyyəsinin özünəməxsus xüsusiyyətləri vardır ki, bu da malların istehsal yerlərindən istifadə yerlərinə qədər fiziki hərəkətinin planlaşdırılması, təşkili və nəzarətinin xüsusiyyətlərini müəyyənləşdirir.

Qida kompleksinin hüdudları aşağıdakı subyektlərin qarşılıqlı fəaliyyəti ilə xarakterizə olunur:

1) çoxşaxəli istehsal strukturu əsasında böyük kənd təsərrüfatı müəssisələrinin, kooperativlərin və sahibkarların istehsal etdiyi qida məhsullarının ehtiyatlarını təşkil edən kənd təsərrüfatı subyektləri;

2) qida məhsullarının tədarükünü həyata keçirən emal sənayesi subyektləri;

3) nəqliyyat, tədarük, konteyner obyektlərini və eyniz zamanda məhsulların son istehlakçıya pərakəndə satışını təşkil etdirərək potensial istifadə dəyərini reallaşdıran istehsal infrastrukturunun subyektləri.

Aqrobiznesdə məhsullarının paylanması müəyyən bir sistem kimi fəaliyyət göstərir ki, bu aşağıdakı şəkildə daha aydın əks olunmuşdur (sxem 2.). İstehsalçılar məhsulu ya birbaşa istehlakçıya yönləndirir ya da müəyyən vasitəçilərlə satışı həyata keçirir.




**Sxem 2. Aqrobiznes sistemində məhsullarının paylanması sistemi**

*Mənbə: Müəllif tərəfindən tərtib olunmuşdur.*

Aqrobiznesdə ticarət fəaliyyətinin ən vacib nüanslarından biri xammalın və hazır məhsulun satılmasıdır ki, bu isə təkrar istehsal prosesinin davamlılığını, istehsal dövrünün bazar ehtiyaclarının parametrlərinə uyğun tənzimlənməsini və yüksək keyfiyyətli mallara olan tələbatını ödəməyi təmin edir. Satış fəaliyyətinin səmərəliliyi məhsulların müxtəlif bazarlarda paylanmasının və təbliğinin təşkilindən çox asılıdır.

Ölkədə iqtisadiyyatının hazırkı inkişaf mərhələsində strateji sahələrdən olan aqrobiznesin inkişafına təkan verən ən vacib atributlarının biri olan qiymət amili və onun elmi əsaslarla formalaşdırılması və səmərəli fəaliyyət mexanizminin təmin edilməsidir. Qiymət mexanizmi bütövlükdə ölkədə sosial və iqtisadi inkişafa təsir göstərən əsas iqtisadi vasitədir.

Qiymətlərin səviyyələrini elmi baxımdan əsaslandırmaq üçün ilk növbədə bazar konyunkturu dərindən təhlil edilməli, mövcud rəqiblərin qiymətləri və onların istifadə etdikləri qiymət sistemi öyrənilməli, ümumiyyətlə götürüldükdə isə bütün bazar amillərinin təsiri dəqiq nəzərə alınmalıdır. Bu zaman perspektivdə istehsalın inkişafının dəyişmə meyli, istehsal xərclərinin strukturunun səviyyəsi, məhsullara olan tələb və onların keyfiyyət xassələri, ekoloji sağlamlığı və s. kimi amillər də nəzərdən qaçırılmamalıdır. Qiymətlərin səviyyələrinin elmi baxımdan əsaslandırılması üçün dolğun və etibarlı informasiya xidmətləri vacib məsələlərdəndir. Həmin informasiyaların etibarlığından və dolğunluğundan asılı olaraq qiymətlərin səviyyələrinin düzgün əsaslandırılması vacib məsələlərdəndir.

Tədqiqqatlar göstərir ki, 2010-cu illə müqayisədə 2022-ci ildə taxılın qiyməti 1 sentnerə görə 89,7 %, xam pambığın qiyməti 99,4%, kartofun qiyməti 58,5%, tərəfəzin qiyməti 65,9 % artmışdır. Qeyd edək ki, müqayisə olunan dövrdə yalnız yunun qiyməti 17,2 % azalmışdır. Təhlillər göstərir ki, heyvandarlıq məhsullarının da 1 sentnerinə görə satış qiyməti müvafiq dövrdə xeyli yüksəlmişdir. Belə ki, 2010-cu illə müqayisədə 2022-ci ildə quş ətinin satış qiyməti 88,7 %, yumurtanın 89,4 %, iri buynuzlu mal qaranın və qoyun ətinin satış qiyməti isə 2.2 dəfə yüksəlmişdir (cədvəl 5).

**Cədvəl 5.**

**Azərbyacan Respublikasında əsas kənd təsərrüfatı məhsullarının satış qiymətləri səviyyəsinin dəyişmə meyli (hər 1 sentner üçün manatla)**

| Məhsullar | 2010 | 2015 | 2018 | 2020 | 2021 | 2022 | 2010-cu ilə nisbətən 2022-ci ildə, %-lə |
|---|---|---|---|---|---|---|---|
| Dənli bitkilər | 24,79 | 23,96 | 26,68 | 34,16 | 38,48 | 47,05 | 189,7 |
| Xam pambıq | 39.27 | 41,82 | 62,82 | 63,30 | 69,79 | 78,22 | 199,4 |
| Tütün | 76,92 | 110,00 | 177,13 | 281,95 | 128,80 | - | - |
| Kartof | 47,33 | 29,79 | 49,92 | 31,47 | 30,93 | 75,03 | 158,5 |
| Tərəvəz | 24,73 | 25,93 | 17,41 | 19,15 | 27,92 | 41,0 | 165,9 |
| Meyvə və giləmeyvə | 40.04 | 47,42 | 83,34 | 101,49 | 48,94 | 82,5 | 2 dəfə |
| Üzüm | 33,59 | 39,42 | 36,05 | 45,97 | 61,60 | 65,41 | 194,7 |
| Bostan məhsulları | 14.33 | 14,12 | 19,71 | 16,65 | 22,12 | 25,51 | 178,3 |
| Süd | 39,70 | 49,66 | 52,59 | 56,05 | 58,72 | 61,55 | 154,9 |
| İribuynuzlu mal qara | 243,40 | 212,35 | 402,85 | 499,37 | 475,86 | 544,99 | 2,2 dəfə |
| Qoyun əti | 248,30 | 349,98 | 477,53 | 572,86 | 470,73 | 551,96 | 2,2 dəfə |
| Donuz əti | 375,00 | 157,59 | 486,00 | 615,82 | 447,37 | 469,26 | 125,1 |
| Quş əti | 220,40 | 206,63 | 267,95 | 263,70 | 328,29 | 416,12 | 188,7 |
| Yun | 154,00 | 145,81 | 144,67 | 146,03 | 133,49 | 126,06 | 81,8 |
| Yumurta (1000 dəfə) | 79,30 | 89,90 | 136,46 | 153,29 | 177,72 | 150,23 | 189,4 |

*Mənbə: Diaqram Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi veb saytının www.stat.gov.az. məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Dövlətin kənd təsərrüfatında qiymətlərində tənzimlənməsində mühüm istiqamətlərdən biri əmtəə məhsullarının alınmasında təminatlı satış qiymət mexanizminin yaradılmasıdır. Bu istiqamət istehsalçıların istehsalın miqdarının artırılması üçün maddi marağının yüksəldilməsinə, istehlakçıların isə alıcılıq qabiliyyətinə uyğun olaraq istehlak imkanlarının formalaşmasına zəmin yaradır. Hesab edirik ki, aqrobiznes özünəməxsus xüsusiyyətləri ilə dövlətin dəstək və himayəsinə xüsusi ehtiyac duyan sahələrdəndir. Bu aspektdə mühüm vasitələrdən biri də qiymət mexanizmidir. Qiymət mexanizmi üzərində dövlət nəzarətinin mövcudluğu istehsalçıların marağının

qorunmasına xidmət edir. Xüsusilə xammal təyinatlı məhsul istehsalını həyata keçirən kiçik təsərrüfat subyektləri bazarda işgüzar istehlakçıların inhisarçılıq meyllərinə qarşı dövlətin təminatlı qiymət siyasəti mühüm tənzimlənmə rıçaqlarından hesab olunur.

**Cədvəl 6.**

**Aqrobiznes sektorunda məhsulların təyinatı və xüsusiyyəti baxımından ən optimal satış kanalları**

| | Taxıl | Paxla | Yaş mevə və tərəvəz | Quru meyvə və tərəvəz | Sənaye bitkiləri | | | | | Heyvan mənşəli məhsullar | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Pambıq | Şək. çuğ. | Günə-baxan | Tütün | Çay | Canlı heyvan | Ət və süd məh. | Süd və süd məh. |
| İctimai | X | | | | | X | | X | X | | X | |
| Özəl sektor | X | X | X | X | X | | X | X | X | X | X | X |
| Koop. və birja | X | | | X | X | X | X | | X | | X | X |
| Ticarət birjaları | X | X | | X | | | X | | | X | | |
| Topdan və pəra-kəndə | | X | X | | | | | | | X | | X |

*Mənbə: müəllif tərəfindən tərtib olunmuşdur.*

Cədvəldən məlum olur ki, aqrar sahə məhsullarının satışında bəzi məhullar üçün əmtəə birjaları mühüm rol oynayır. Pambıq əmtəə birjalarında çıxarılan məhsullar içərisində ən vacib yeri tutur. Qoz-fındıq və paxlalılar, quru meyvələr, fərqli satış kanalları vasitəsi ilə bazarlara təklif olunur.

Aqrobiznes fəaliyyətinin ən mühüm qiymətləndirmə meyarlarından biri istehlak bazarının iqtisadi göstəricilərinin səviyyəsidir. Araşdırmalardan məlum olur ki,satışın bütün növləri üzrə pərakəndə əmtəə dövriyyəsi 2022-ci ildə 2010-cu illə müqaiysədə 3,9 dəfə artmışdır. Qeyd ədək ki, müvafiq göstərici bir öncəki illə müqayisədə isə 17,9% yüksəlmişdir. Tədqiqatlar göstərir ki, 2022-ci ildə əhalinin bir nəfərinə düşən pərakəndə ticarət dövriyyəsi, 2010-cu illə müqayisədə 3,4 dəfə, 2021-ci illə müqayisədə isə 17,3% artmışdır. Aqrobiznes sektorunun istehlak bazarındakı vəziyyətini xarakterizə edən ən mühüm göstəricilərdən biri pərakəndə əmtəə dövriyyəsinin

ümumi həcmindən ərzaq məhsullarının xüsusi çəkisi ilə bağlıdır. Araşdırmaların aparıldığı dövrdə ərzaq məhsulları 2010-cu illə müqayisədə 3,4 dəfə və 2021-ci ilə müqayisədə isə 22,2 % artmışdır.

**Cədvəl 7.**

**İstehlak bazarının əsas iqtisadi göstəriciləri, mln. manatla**

| Göstəricilər | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2010-cu ilə nisbətən 2022-ci ildə %-lə | 2021-ci ilə nisbətən 2022-ci ildə %-lə |
|---|---|---|---|---|---|---|---|
| Satışın bütün növləri üzrə pərakəndə əmtəə dövriyyəsi | 13261,7 | 25.721,1 | 40.166,5 | 44.217,5 | 52.171,0 | 3,9 dəfə | 117,9 |
| O cümlədən: | | | | | | | |
| Müəssisələr | 1.804,6 | 2.823,3 | 9.111,8 | 11.631,3 | 13.608,5 | 7,5 dəfə | 116,9 |
| Fərdi sahibkarlar | 11.457,1 | 22.897,8 | 31.054,7 | 32.586,2 | 38.562,5 | 3,3dəfə | 118,3 |
| Ondan: | | | | | | | |
| Yarmarkalar və məhsulları bazarı | 5.457,7 | 8.633,8 | 9.109,5 | 9.513,2 | 11.346,7 | 2,0 dəfə | 119,2 |
| Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmində iaşənin əmtəə dövriyyəsi | 417,8 | 1.111,2 | 759,6 | 979,1 | 1.586,0 | 3,8 dəfə | 161,9 |
| Əhalinin bir nəfərinə düşən pərakəndə ticarət dövriyyəsi, manatla | 1.484,4 | 2.699,2 | 4.016,6 | 4.402,1 | 5.167,9 | 3,4 dəfə | 117,3 |
| Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmindən: | | | | | | | |
| Ərzaq malları | 8.577,1 | 12.871,2 | 21.684,8 | 24.031,4 | 29.380,2 | 3.4 dəfə | 122,2 |
| Qeyri-ərzaq malları | 4.684,6 | 12.849,9 | 18.481,7 | 20.186,1 | 22.790,8 | 4,8 dəfə | 112,9 |
| Topdansatış əmtəə dövriyyəsi | 14.995,0 | 26.351,4 | 28.482,9 | 31.981,9 | 31.597,0 | 2,1 dəfə | 98,7 |

*Mənbə: Diaqram Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi veb saytının www.stat.gov.az. məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Aqrobiznes sferasında kiçik və orta sahibkarların ixrac potensialını yüksəltmək və idxalı əvəz edəcək sahələrin inkişafını təmin etmək bəzi məsələlərin reallaşdırılması istiqamətində də mühüm rol oynaya bilər:

- regional inkişafda qeyri bərabərliyin aradan qaldırılması;
- ölkə iqtisadiyyatının səmərəli sahə strukturunun formalaşması;
- ölkənin ixrac potensialının yüksəldilməsi;
- məşğulluğun optimal səviyyəsinin təmin edilməsi;
- orta təbəqənin formalaşması prosesinin sürətləndirilməsi və s.

Son illər ölkə iqtisadiyyatının dinamik inkişafı aqrar sahənin istehsal imkanlarının yaxşılaşması dolayısı ilə sahə üzrə ixrac göstəricilərinin artmasına şərait yaratmışdır. Doğrudur hazırda son on ildə olduğu kimi yenədə mineral mənşəli məhsullar ixracın əmtəə strukturunda əsas paya sahibdir lakin buna baxmayaraq aqrar sektorun və onunla sıx əlaqədə olan qida sənayesinin ixrac imkanları əvvəlki illərlə müqayisədə bir qədər yüksəlmişdir. 2020-ci ildə respublikamızdan ixrac olunmuş əmtəələrin strukturuna nəzər saldıqda görürük ki, aqrobiznes sektorunun ixracda payı 5-6 % civarındadır. Mövcud vəziyyətin arzuolunan səviyyədən uzaq olmasına baxmayaraq aqrobiznes sektorunda kiçik və orta sahibkarların istehsal infrastrukturunun təkmilləşdirilməsi və dövlətin aqrar siyasətinin uğurla icra olunması gələcəkdə bu istiqamətdə əsaslı dönüşün yaranacağından xəbər verir.

Hazırda aqrar sahədə kiçik və orta sahibkarlıq (KOS) subyektlərinin maliyyələşdirilməsində ciddi problemlər var. Son illər dövlət tərəfindən problemlərin həlli istiqamətdə bir sıra addımlar atılsa da müəyyən çatışmazlıqların mövcudluğu hələdə danılmazdır. Xüsusi sahibkarların gəlir səviyyəsinin yüksək olmaması və mənfəətin əldə olunmasında davamlılığın iqtisadiyyatın digər sahələri müqayisədə daha aşağı olması maliyyə təminatının yaxşılaşdırılmasına mənfi təsir edən amillərdən hesab olunur. Məlumdur ki, xüsusi maliyyə vəsaitləri aqrobiznes sektorunda kiçik və orta sahibkarlığın formalaşmasında yetərli səviyyədə olmadığı üçün bu amil dövlət tərəfindən sahibkarlara göstəriləcək maliyyə dəstəyinin aktivləşdirməsi zərurətə çevirir.




**Şəkil 4. Azərbaycan Respublikasında 2022-ci ildə ixracın əmtəə strukturu-%-lə**

*Mənbə: Diaqram Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*




**Şəkil 5. Azərbaycan Respublikasına 2022-ci ildə idxalın əmtəə strukturu-%-lə**

*Mənbə: Şəkil Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

Aqrar sahədə kiçik və orta sahibkarlığın birgə və səmərəli mövcudluğu üçün yaradılmış makroiqtisadi şəraitin mikrosəviyyəyə transferində resurs bazarının inkişafı, innovasiyalı və tarazlı inkişaf üçün əlverişli şəraitin yaradılması və selektiv stimullaşdırma, tarif və qeyri-tarif tənzimlənməsi, qiymət və qeyriqiymət rəqabəti üsullarının optimal kombinasiyası və s. kifayət qədər əhəmiyyətli rol oynayır. Müvafiq effektin reallaşdırılması innovasiya fəallığına müsbət təsir etməklə aqrar sahədə özəl bölmənin təşəbbüskarlığına xidmət etmiş olur. Aqrobiznesdə kiçik və orta sahibkarlıq subyektlərinin təşviq olunması, innovasiyalı fəaliyyətə rəhbərliyin həyata keçirilməsinin təşkilati-sərəncamverici, iqtisadi və sosialpsixoloji metodlarının tətbiqi üzrə qabaqcıl təcrübənin yayılması, işçi heyətin mənfəətdə və idarəetmədə iştirakının təmin edilməsi, maddi maraqların uzlaşdırılması, vahid komandada iş və korporativ mədəniyyətin təşviqi kimi məsələlərin həlli də prioritet hesab edilməlidir.

Kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadi inkişafda oynadığı rola uyğun olaraq bu kateqoriya uyğun olan sahibkarlıq subyektlərinin inkişafında maraqlı olan dövlət kiçik və orta müəssisələrə hərtərəfli yardımlar həyata keçirir[9]. Qərb ölkələrinin təcrübəsi göstərir ki, bu kateqoriya müəssisələrə edilən yardımlar arasında dövlətin maliyyə yardımları xüsusi yer tutur və hal-hazırda onsuz KOS-ın inkişafını təsəvvür etmək çətindir. Azərbaycanda da KOS subyektlərinə maliyyə yardımı həyata keçirən dövlətin bu sahədəki fəaliyyəti qənaətbəxş hesab edilməsə də, həmin işi aparmaq üçün qanunvericilik bazasının təkmilləşdirilməsi və genişləndirilməsi məsələləri prioriter məsələlərdən hesab ounmalıdır.

Ölkə iqtisadiyyatının müasir inkişaf mərhələsində kiçik və orta sahibkarlığın inkişafı üçün iqtisadi subyektlər daima yeniliklər axtarışında olmalı, dünya iqtisadiyyatında mövcud olan uğurlu təcrübələri nəzər salmalıdır. Məhz yeniliklərin, innovativ dəyişikliklərin edilməsi KOS-ların inkişafını sürətləndirən ve şaxələndirən əsas amillərdən hesab olunur. Son illər KOS-larında

---

[9] Çelik, A.T. Girişimcilik Kültürü ve KOBİ'ler.İstanbul, Nobel Yayın Dağıtım, 2018. – 567 s

inkişafına tövhə verən mühüm və innovativ dəyişikliklərin bir kimi dövlət dəstəyi nəticəsində reallaşdırılmışş"elektron ticarət" portalını göstərmək olar. İlk baxışdan elektron ticarətin əsasən xidmət və ticarət sahəsində alqı-satqı prosesinin elektron vasitələrdən istifadə etməklə həyata keçirilməsinin əhəmiyyəti ön plana çıxır. Lakin qeyd etməliyik ki, strateji sahələrdən olan aqrobiznes subyektləridə bu platformadan uğurla istifadə edə bilər. Elektron ticarətin əsas üstünlüyü ticarət əməliyyatlarının onlayn rejimdə həyata keçirilməsi, məhsulların hərəkəti, yerdəyişməsi internet şəbəkəsi vasitəsilə aparılmasıdır ki, buda onu ənənəvi ticarətdən fərqləndirir.

Azərbaycan iqtisadiyyatının neftdən asılılığının minimuma endirilməsi, KOS-a əsaslanan rəqabətqabiliyyətli istehsal potensialının artırılması növbəti dövrlərdə də əlavə tədbirlərin həyata keçirilməsini zəruri edir. Bu səbəbdən biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində islahatları davam etdirmək əsas strateji hədəflərdən biri kimi müəyyən edilmişdir və bu hədəfə nail olmaq üçün dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, biznes və investisiya mühitinin dəstəklənməsi vacibdir. Bu məqsədlə, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin və süni maneələrin aradan qaldırılması, sahibkarlığın dövlət tənzimlənməsində inzibati qayda və prosedurların təkmilləşdirilməsi, təşviq mexanizmlərinin tətbiqi və elektron hökumət xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi prioritet olaraq qalacaqdır. Ölkədə KOS-un inkişafı biznes və investisiya mühitinin yerli və xarici investorlar üçün əlverişliliyinin daha da artırılmasını, ən qabaqcıl beynəlxalq təcrübəyə uyğun daha da cəlbedici biznes və investisiya mühitinin formalaşdırılmasını təmin edəcəkdir.

Qeyd edilənləri nəzərə alaraq, sahibkarlıq subyektlərinin əsas makroiqtisadi gostəriciləri əsasında onun inkişafına təsir edən amillər arasında korrelyasiya asılılığını nəzərdən keçirək. Cədvəl əsasında məhsul buraxılışını nəticə, işçilərin sayı və əsas kapitala investisiyaları səbəb amilləri kimi qəbul edək.

Excel təhlil paketindən istifadə edərək, məlumatlara uyğun olaraq reqressiya təhlilinin nəticələri aşağıdakı cədvəldə əks edilmişdir (cədvəl 8).

**Cədvəl 8.**

## Azərbaycan Respublikasında sahibkarlıq subyektlərinin əsas makroiqtisadi gostəriciləri

| İllər | İşçilərin sayı, min nəfər - x1 | Əsas kapitala investisiyalar, milyon manat - x2 | Məhsul buraxılışı, milyon manat - y |
|---|---|---|---|
| 2016 | 281 | 2830,2 | 5831,2 |
| 2017 | 290,1 | 3298,6 | 6269,6 |
| 2018 | 283,4 | 6953 | 17401,6 |
| 2019 | 332,2 | 3 422,20 | 19 579,40 |
| 2020 | 348,7 | 2 674,10 | 19725, 7 |
| 2021 | 357,8 | 3387,7 | 24747,4 |
| 2022 | 370,1 | 2827,1 | 29003,4 |

*Mənbə: www.stat.gov.az. Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib olunmuşdur.*

Təcrübədə çoxamilli reqressiya tənliyinin parametrlərinin təhlili zamanı aşağıdakı düsturdan istifadə edilir:

**Cədvəl 9.**

## Reqressiya modelinin nəticələri

Yekun nəticə

| *Reqressiya statistikası* | |
|---|---|
| Çoxsaylı R | 0.989303607 |
| R - kvadrat | 0.978721626 |
| Normallaşdırılmış R-kvadrat | 0.964536044 |
| Standart xəta | 1464.202765 |
| Müşahidə | 6 |

Dispersiya təhlili

| | *df* | *SS* | *MS* | *F* | *Əhəmiyyət F* |
|---|---|---|---|---|---|
| Reqressiya | 2 | 295831523.6 | 147915761.8 | 68.99410884 | 0.0031039 |
| Qalıq | 3 | 6431669.207 | 2143889.736 | | |
| Cəmi | 5 | 302263192.8 | | | |

| | Əmsallar | Standart xəta | t - statistika | P - məna | Aşağı 95% | Yuxarı 95% |
|---|---|---|---|---|---|---|
| Y - kəsişmə | -71550.14056 | 7450.674041 | -9.603176863 | 0.002396223 | -95261.51063 | -47838.77049 |
| Dəyişən X 1 | 240.6552357 | 20.75987383 | 11.5923265 | 0.001378622 | 174.5880519 | 306.7224194 |
| Dəyişən X 2 | 2.980051725 | 0.452509778 | 6.585607364 | 0.007124584 | 1.539963655 | 4.420139795 |

$$Y = b0 + b1\ x\ 1 + b2\ x2 + \cdots + bnxn.$$

Göstəricilər əsasında reqressiya modelinin tənliyini aşağıdakı kimi təsvir etmək olar:

$$Y = -71550.14056 + 240.6552357X_1 + 2.980051725X_2$$

Əldə olunmuş reqressiya əmsallarının mahiyyəti ondan ibarətdir ki, X1 faktorunun 1 vahid dəyişməsi Y faktorunun 240.6552357 vahid dəyişməsinə, X2 faktorunun 1 vahid dəyişməsi isə Y faktorunun 2.980051725 vahid artmasına səbəb olacaq. Bu nəticənin adekvatlığını müəyyən etmək üçün verilmiş əmsalların statistik əhəmiyyətliliyi yoxlanılmalıdır. Bunun üçün aşağıdakı hipotezi (fərziyyəni) yoxlamaq lazımdır:

$$\begin{cases} H_0: \beta_1 = 0 \\ H_0: \beta_1 \neq 0 \end{cases}$$

Yuxarıdakı hipotez t-statistika əsasında sınaqdan keçirilir: $t_1$=11.5923268, $t_2$=6.58560736. Styudentin paylanmasının (t-paylanması) böhran nöqtəsi: $(\alpha = 0{,}0005)$ $t_{0,0005;2}$=31.599. Hesablamalardan alınan nəticələrə əsasən 11.5923268<31.599, 6.58560736<31.599 olduğundan $X_1$ və $X_2$ dəyişənlərinin əmsalları statistik əhəmiyyətlidir.

Sahibkarlıq subyektlərində məhsul buraxılışının həcminə təsir edən amillərin real rolunu müəyyən etmək üçün mütləq göstəricilərlə yanaşı nisbi göstəricilərdən də istifadə etmək zəruridir. Elastiklik əmsalı bu asılılığın müəyyən edilməsi baxımından təhlilin mütləq şərtlərindən biri hesab olunur. Elastiklik əmsalı 1-dən az olarsa, yaranan amilə təsir o qədər də yüksək hesab edilmir. Xətti reqressiya tənliyi əsasında sərbəst dəyişənin 1% dəyişməsi nəticəsində asılı dəyişənin neçə faiz dəyişməsini ifadə edən elastiklik əmsalını aşağıdakı düstür əsasında hesablamaq olar:

$$E = \frac{x_{\times \bar{x}}}{\bar{y}}$$

Cədvəl 8-dəki nəticələrə nəzər saldıqda qeyd edə bilərik ki, işçilərin sayının və əsas kapitala ayrılan investisiyaların həcminin 1% artması uyğun olaraq 4.87% və 4.31% artmasına səbəb olacaq.

**Cədvəl 10.**

**Sahibkarlıq fəaliyyətində məhsul buraxılışının həcminə təsir edən amillərin elastikliyi**

| Məhsul buraxılışı, mln manat | İşçilərin sayı, min nəfər | Əsas kapitala investisiyalar, mln manat |
|---|---|---|
| 1% | 4.87% | 4.31% |

*Mənbə: MS Office Excel proqramından istifadə edilərək müəllif tərəfindən hesablanmışdır.*

Tədqiq olunan dövr üzrə göstəricilər arasındakı korrelyasiya əmsalı $r = \sqrt{R^2}$= 0.9820 olduğundan, Çeddok şkalasında r= 0.9-0.99 olmasına əsasən məhsul buraxılışı ilə işçilərin sayı və əsas kapitala ayrılmış investisiyaların həcmi arasında olduqca yüksək korrelyasiya asılılığı vardır. Determinasiya əmsalı R – square =0.9787 olması onu göstərir ki, approksimasiya olduqca yüksəkdir. Determinasiya əmsalının $R^2$=0.9787 olması o deməkdir ki, müvafiq reqressiya tənliyi 97,9% dispersiya nəticə göstəriciləri ilə, 2,1%-i isə digər amillərin təsiri ilə izah edilir. Determinasiya əmsalının yüksək olması reqresiya tənliyinin ilkin verilənləri daha yaxşı ifadə etməsi və nəticə amilinin daha çox hissəsinin (97,9%) modelə daxil olan amillər hesabına izah edilməsi ilə əlaqədar olduğunu göstərir.

Significance F~0.0031039 olduğundan, p □ 0,05 şərtinə əsasən reqressiya modeli qiymətlidir.

F-Fişer kriteriyasının köməkliyi ilə EXCEL proqramına əsasən alınmış reqressiya tənliyinin statistik əhəmiyyətliliyi, F-Fişer kriteriyası, $F_{cədvəl}\,(a; m; n - m - 1)$ ilə müqayisə edilməklə müəyyən edilir. Cədvəl 8-dən göründüyü kimi F- statistic (Fişer kriteriyası) = 68.9941. Bu halda, 95%-li inamlı intervalla əhəmiyyətlik səviyyəsi $\alpha = 0{,}05$ olmaqla, $F_{cədvəl}$ (a; m; n − m − 1) = Disagreement düsturunun köməkliyi ilə $F_{cədvəl}$ müəyyən etsək aşağıdakı nəticəni alırıq:

$$F_{cədvəl}\,(a; m; n - m - 1) = \text{Disagreement}\,(0{,}05;6;8) = 19.0$$

F- Fişer kriteriyası, $F_{cədvəl}$ (a; m; n − m − 1) qiyməti ilə müqayisə edildikdə görünür ki, F-Fişer kriteriyası > $F_{cədvəl}$ (68.9941>19.0). Bu isə o deməkdir ki, reqressiya tənliyi bütövlükdə statistik əhəmiyyətli xarakter daşıyır. Bu isə qurulmuş modelin adekvatlığı deməkdir.

**Tədqiqatın gedişində əldə edilmiş əsas nəticələrin, yeni elmi yanaşmaların, təklif və tövsiyələrin bir qismini xülasə edirik.**

Müasir iqtisadi şəraitdə respublikamız üçün strateji sahələrdən birinə çevrilən aqrobiznesdə KOS-ın inkişafı məqsədilə dövlətimiz tərəfindən mühüm tədbirlər həyata keçirilir. Bu tədbirləri aqrobiznesin fəaliyyət spektorunu genişləndirməsi və sahənin bir başa inkişafına təsir səviyyəsinə və prioritetliyinə görə aşağıdakı kimi təsnifləşdirə bilərik:

- dünya üçün aktual olan ölkənin ərzaq təhlükəsizliyinin və daxili bazarda sabitliyinin təmin edilməsində rol oynayan aqrobiznesin inkişafı tədbirləri təxirə salınmadan davam etdirilməlidir.

- KOS-ın inkişafı məqsədilə iqtisadi subyektlərin fəaliyyəti daha da yaxşılaşdırmalı və azad rəqabət mühiti yaradılmalıdır;

- aqrobiznesdə KOS-ların yüksək rentabelli fəaliyyətinin təmin edilməsi məqsədilə stehsalın səmərəliliyinin təmin edilməsi və elmi-texniki tərəqqinin ən yeni nəaliyyətlərinin istehsala tətbiq edilməsi, aqrar sahədə məşğulluğun təmin edilməsi və kənd əhalisinin həyat şəraitinin davamlı şəkildə yaxşılaşdırılmalıdır;

- KOS-ın inkişafı məqsədilə aqrobiznesin mühüm elementləri kimi kimi topdansatış ərzaq bazarlarının inkişafı təşviq edilməlidir;

- aqrobiznesdə inkişafını şərtləndirən mühüm amillərdən biri də rəqabətqabiliyyətli istehsalın genişləndirilməsi vasitəsilə ixrac potensialı artırılmalıdır;

- aqrobiznes strukturlarının normal fəaliyyətini təmin etmək üçün bu sahəyə dövlət dəstətinin artırılması və sahibkarlığın inkişafına mane olan mənfi təsirlərin aradan qaldırılması tədbirləri reallaşdırılmalıdır:

- aqrobiznesdə KOS-ın inkişaf etdirilməsi ilə bağlı bu sahə ilə optimal səviyyəli iqtisadi əlaqələrin qurulduğu tsərrüfat sahələrinə müyyəən dəstəklər olunmalıdır;

- aqrobiznesin əsas tərəfdaşlarından olan emal müəssisələrinin inkişafı məqsədilə sahəyə investisiya qoyuluşları təşviq olunmalı və xammal istehsalçıları ilə emal müəssisələri arasında inteqrasiya münasibətləri optimal səviyyədə saxlanılmalıdır;

- kənd təsərrüfatı əmtəə istehsalçılarının bazara çıxış imkanlarının genişləndirilməsi, son nəticədə kəndlilərin daha çox gəlir əldə etmələrinə əlverişli şəraitin yaradılması təmin olunmalıdır;

- kənd təsərrüfatın istehsalçıları məlumdur ki, öz zəhmətlərinə müvafiq gəlir əldə etmirlər, bu məqsədlə ticarət vasitəçilərinin fəaliyyəti tənzimlənməli onların inhisarçılq meyillərinin qarşısı alınmalıdır;

- qiymət disproporsiyasının qarşısının alınması üçün iki pilləli qiymət səviyyəsi tətbiq edilməlidir;

- müasir şəraitdə dövlətin qiymət tənzimlənməsi, əsas etibarilə kənd təsərrüfatı məhsulları ilə, sənaye məhsullarının qiymətləri arasında

disparitetin aradan qaldırılmasına istiqamətlənməlidir. Qiymət tənzimlənməsi qiymət disparitetinin aradan qaldırılması qiymətlərin təbii inhisarların tariflərinin istehsalçılar və istehlakçılar üçün optimal səviyyədə tətbiq edilməsinə nail olunmalıdır;

- kənd təsərrüfatında ətraf mühütün qorunması və ekoloji təmiz məhsul istehsalı ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi, elmi-tədqiqat işlərinin genişləndirilməsi zəruri sayılmalıdır;

- aqrobiznes subyektlərinin maliyyə təminatının yaxşılaşdırılması da KOS-ların bilavəsitə daha səmərəli və intensiv fəaliyyətinin təmin olunmasında mühüm rol oynayır. Bu baxımdan risk faktoru, istehsal–satış fazasındakı intensivlik səviyyəsinə sahibkarlar üçün kredit şərtləri yaxşılaşdırılmalı və regional potensiala uyğun olaraq diferensial kredit dərəcələri tətbiq olunmalıdır.

Aqrobiznesdə KOS-ın inkişfına təsir edən əsas çatışmazlıqlardan biri də sığorta ilə əlaqədardır. Belə ki, hazırda sığorta şirkətlərinin əksəriyyəti kiçik və orta muəssisələrinin sıgortalanmasında bir o qədər də maraqlı deyil. Burada göstərilən əsas məqamlardan biri aqrobiznesdə KOS-ların fəaliyyəti ilə bağlı risklərin hesablanması zamanı yaranan çətinliklərdir. Sahənin özünə xas xüsusiyyətləri burada rol oynayır bu baxımdan aqrobiznes sferasında sığorta sisteminin fəaliyyət mexanizmi yenidən qurulmalıdır. Artıq dövlətimiz tərəfindən bu istiqamətdə mühüm addımlar atılır.

Tədqiqatın ümumi məzmunundan irəli gələn nəticələrə əsaslanaraq, təklifləri aşağıdakı kimi ifadə etmək olar:

1. Aqrobiznes sektorunda kiçik və orta sahibkarlığın inkişafı ölkə iqtisadiyyatının çox şaxəliliyinin təmin olunmasında və bütövlükdə cəmiyyətin artan ehtiyaclarının qarşılanmasında mühüm rol oynayır. Buna görə də dövlət tərəfindən strateji sahələrdən biri kimi aqrobiznesdə kiçik və orta sahibkarlıq subyektlərinin hər vasitə ilə inkişaf etdirilməsi prioritetlərdən hesab olunur. Lakin bununla yanaşı aqrar sahibkarlığın balanslaşdırılmış və mütənasib inkişafı üçün əlverişli biznes mühitinin yaradılması və rəqabətin təşviq edilməsi, daxili bazarın bazarın ehtiyaclarını təmin etmək və ixraca rəqabət qabiliyyətli mallar göndərmək iqtidarında olan aqrobiznesin inkişafına böyük diqqət yetirilməlidir.

2. Aqrar sahədə sahibkarlıq fəaliyyətinin inkişafının iqtisadi əhəmiyyəti ilə yanaşı sosial mahiyyəti də düzgün qiymətləndirilməlidir. Ölkə iqtisadiyyatının çox şaxəliliyinin təmin olunması istiqamətində aqrar sahibkarlığın artan önəmi ilə bərabər onun siyasi sabitlik və cəmiyyətin demokratik inkişafının təminatı olan geniş mülkiyyətçilər sinfinin formalaşmasında rolu danılmazdır, məşğulluğun təmin olunması, əhalinin rifah səviyyəsinin yüksəlməsi, sosial gərginlik səviyyəsini azaldır, ölkə əhalisinin çox hissəsinin yaşadığı kənddə əhalinin ictimai psixologiyasını və həyat oriyentirlərini müsbət istiqamətdə dəyişməsinə mübət töhfələr verir.

3. Aqrar sahədə təsərrüfat fəaliyyətinin inkişafına təkan verən səmərəli biznes mühitinin yaradılması kiçik və orta sahibkarlıq subyektləri başda olmaqla bütün sahibkarların normal fəaliyyətinin təşkilində mübət rol oynayan hüquqi baza, iqtisadi mexanizmərin təkmilləşdirilməsini də şərtləndirir. Hesab edirik ki, bütün bu müsbət tendensiyalarla birlikdə sahibkarların cəmiyyətdə rolunun artırılması, onlarda sosial məsuliyyət hissinin formalaşması baxımından biznes fəaliyyətində etik dəyərlər korporativ məsuliyyət anlayışını aşılayan tədbirlərin xüsusilə aqrar sahədə fəaliyyət göstərən sahibkarlar üçün təşkili əhəmiyyətli amil hesab edilir.

4. Aqrobiznes sektorunda sahibkarlıq fəaliyyətinin səmərəli təşkili geosiyasət və dünya iqtisadiyyatında baş verən dəyişikliklər nəzərə almadan aparılması mümkün deyildir. Bu baxımdan dünya iqtisadiyyatında aqrar sahənin inkişafı konteksində baş verən mütərəqqi yeniliklər ölkəmizin aqrar sahəsində fəaliyyət göstərən sahibkarlar üçün də nümunə olmalıdır. Aqrar istehsalın inkişafında rol oynayacaq mütərrəqqi yeniliklərin tətbiqi istiqamətdə yaranmış çətinliklərin aradan qaldırılmasında dövlət öz imkanlarını səfərbər etməklə yanaşı kənd təsərrüfatı istehsalında əhatəli bilgilərə sahib olan xarici invetorların potensialından da maksimum səmərə ilə istifadə etməlidir. Aqrobiznesdə KOS-ın inkişafı üçün bir tərəfdən, istehsalın perspektiv texnologiyalarla bağlı milli sektorlarının möhkəmlənməsinə imkan yaratmaqla yanaşı innovativ texnologiyaların və nouhauların aqrar istehsala cəlb olunması bu aspektdə qiymətləndirilməlidir.

5. İnkişaf etmiş ölkələrdə sahibkarlığın inkişafında dövlətin rolu artmaqdadır. Sosial yönümlü bazar iqtisadiyyatı modeli ilə idarə olunan

ölkələrdə dövlətin sosial problemlərin həllində iştirakının genişləndirilməsi deyil, həm də xüsusi və ictimai maraqların balanslaşdırılması, sahibkarlıq strukturlarının fəaliyyətinin əlaqələndirilməsi məqsədilə iqtisadiyyatda tənzimləmə funksiyalarının gücləndiril məsini şərtləndirir. Hesab edirik ki, ölkə iqtisadiyyatının müasir inkişaf mərhələsində aqrar sahədə həyata keçirilən dövlət proqramlarının ana xəttini də sırf bu məsələlər təşkil etməlidir.

6. Dünyada iqtisadi inkişafın müasir tendensiyalarını, Azərbaycanın strateji sosial-iqtisadi inkişaf istiqamətlərini, eləcə də ölkə iqtisadiyyatında aqrar sahədə sahibkarlıq fəaliyyətinin təşviqi istiqamətində müasir çağırışları nəzərə alaraq, kiçik və orta sahibkarlıq subyektlərinin təşkili və dəstəklənməsinə münasibət köklü şəkildə dəyişdirilməli və bu istiqamətdə təşviqedici dəstək mexanizməri formalaşdırılmalıdır.

7. Aqrobiznesdə sahibkarlıq subyektləri arasında rəqabət üstünlüklərinin formalaşdırılması üsulları: daha aşağı qiymətə (qiymət rəqabəti) və istehlakçıların ehtiyaclarını daha yaxşı ödəmək qabiliyyətinə malik keyfiyyətli məhsulun təklif olunması (qeyri-qiymət rəqabəti) yolu ilə müəyyən edilmişdir. Bu zaman özündə qiymət və qeyri-qiymət rəqabəti metodlarını cəmləşdirən kombinə olunmuş üsulun istifadəsi daha səmərəli hesab olunur. Kiçik və orta sahibkarlıqla bağlı rəqabət üstünlüklərindən danışarkən xüsusi vurğulamaq lazımdır ki, sahibkar, ilk növbədə həm istehsalda müasir texnologiyalardan istifadə etməlidir, eyni zamanda bazarın fəth olunması üçün düzgün marketinq strategiyalarını tətbiq etməlidir.

8. Aqrar sahə müəssisələrinin fəaliyyət sferasında rəqabət üstünlüklərinin yaradılmasının göstərilən üsulları çərçivəsində müəyyən edilmişdir ki, ilk növbədə, diqqət rəqabət mübarizəsinin gerçəkləşdirilməsi zamanı başlıca rolu ən güclü aləti kimi innovasiyaların tətbiqinin oynadığı qeyri-qiymət metodlarına yönəldilməlidir.

9. Aqrar sahə müəssisələrinin yalnız xarici mühitdə aşkarlanmış mühüm irəliləyişlər onun şəxsi rəqabət qabiliyyətini deyil, həm də fəaliyyət göstərdiyi ölkə və ya regionun rəqabət qabiliyyətinin vacibliyini müəyyən etmişdir. Bununla əlaqədar olaraq, firmanın rəqabət qabiliyyətliliyi amillərini beynəlxalq şirkətlərin təcrübəsinə əsaslanmaqla nəzərdən keçirmək tövsiyə olunur.

10. Hazırda qlobal səviyyədə aktual olan yaşıl iqtisadiyyata keçid mərhələsində ölkəmizdə aqrobiznes sferasında fəaliyyə göstərən KOS subyektləri ətraf mühitin qorunması istiqamətində bərpa olunan enerji mənbələrindən istifadə etməyə təşviq olunmalıdır.Külək, su və günəş enerjisi mənbələrindən istifadə bu istiqamətdə prioritetlərdən olmalıdır. Bu proses kənd təsərrüfatında hər gün artan enerji xərclərində qənaət etmək imkanını da artıra bilər. İntensiv istehsalı həyata keçirmək üçün planlı yanaşma qəbul edilməli kənd təsərrüfatı torpaqlarından təyinatından kənar istifadənin qarşısı alınmalıdır.

11. Hesab edirik ki, aqrobiznes sektorunda KOS-ın rolunun gücləndirilməsi üçün aşağıdakı məslələrin həllinə xüsusi diqqət yetirilməlidir:

- regionlarda müvafiq dövlət qurumlarının və bələdiyyə orqanları sahibkarların fəaliyyətində yaratdığı bürokratik maneələr;
- aqrar sahədə kiçik və orta sahibkarlıq subyektlərinin istehsal təsərrüfatlarında su təminatı probleminin öz aktuallığını saxlaması;
- aqrar sahədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin maliyyə təminatının yaxşılaşdırılması baxımından maliyyə-kredit müəssisələri ilə qarşılıqlı münasibətlərin yetərsizliyi xüsusilə kommersiya banklarının kredit portfelində aqrar kreditin xüsusi çəkisinin çox az olması;
- kiçik biznes müəssisələrinin bir-biri ilə qarşılıqlı münasibəti, maraq və davranışların fərqlənməsi, haqsız tərəfdaşlıq;
- aqrar sahədə ticarət vasitəçilərinin çoxluğu və inhisarçılıq meyilləri;
- informasiya problemləri;
- idxal məhsullarının daxili bazarda yerli istehsalıçılara yaratdığı çətinliklər;
- istehsalçıların bazar araşdırmalarında yetərsizliyi və bununla əlaqədar istehsal olunan məhsulların bazarda daha əlverişsiz qiymətlərə təklif olunması;
- itehsal olunan məhsulun yığımı və tədarükü ilə bağlı infrastrukturun yetərsizliyi və s.

Aqrobiznesin potensialı hər bir ölkə üçün fərqli olsa da, onun inkişafı istiqamətində müəyyənləşdirilmiş qanunauyğunluqlar eynidir və ya böyük ölçüdə oxşarlıq təşkil edir. Odur ki, Azərbaycanda neft

amillindən asılılığın azaldılmasına bu qədər ciddi diqqət yetirildiyi hazırki mərhələdə KOS-ların inkişafı istiqamətində dünya dövlətlərinin bu sahədə qabaqcıl təcrübəsindən yararlanmaq ölkəmizin iqtisadiyyatında geniş ölçülü əlavə dəyərin yaradılması baxımından əhəmiyyəli ola bilər.

**Dissertasiyanın əsas müddəaları aşağıdakı dərc olunmuş məqalələrdə və konfrans materiallarında öz əksini tapmışdır:**


1. İdarəetmə qərarlarının qəbulunda spesifik sistemli yanaşma. // – Bakı: H.Əliyevin anadan olmasının 91 ildönümü münasibəti ilə Az. Res. Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının keçirdiyi respublika elmi-praktiki Konfransı, 2014.
2. Aqrar sahədə istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsinin prioritetləri. // – Gəncə: Akademik Ə.Mahmudovun 91 ildönümü münasibəti ilə müasir mərhələdə kənd təsərrüfatının inkişafı elmi-praktiki konfransın materialları, 22-24 sentyabr 2014.
3. Əhalinin ərzaq təminatının yerli istehsal hesabına ödənilməsi istiqamətləri. // – Mingəçevir: Mingəçevir Dövlət Universiteti. Davamlı İnkişafın Milli Modeli və Strategiyası, 2015. – s. 208-210.
4. Aqrar emal müəssisələrinin inkişafında kənd təsərrüfatı istehsalının rolu // – Bakı: AMEA- nın elmi əsərləri, 2015, № 5. – s. 135-140.
5. Современное состояние и перспективы развития малого и среднего предпринимательства в Азербайджанской Республике. // – Липень: Науково-практический журнал Инвестиции: практика та досвид, 2016, № 14. – стр. 44-48.
6. Тенденции развития сектора агробизнеса в качестве стратегической области ненефтяного сектора в Азербайжанской Респувлике // – Москва: Научный журнал «Интернаука» №7 (11) 2017, г часть 2, 2017. – стр. 19-22.
7. Aqrar iqtisadiyyatın inkişafında kiçik və orta sahibkarlığın rolu // – Bakı: Kənd Təsərrüfatının İqtisadiyyatı, Elmi-Tədqiqat İnsitutunun Elmi əsərləri, 2017, № 4. – s. 13-17.
8. Aqrar-emal sənayesində rəqabətə davamlı istehsalın formalaşmadırılması və inkişafını şərtləndirən amillər. // – Bakı: “Kooperasiya” elmi-praktiki jurnal, 2017, № 4 (47). – s. 22-29.

9. Роль агробизнеса в обеспечении качественной продукции потребительского рынка в Азербайжанской Республики // – Минск: III Международный научно практической конференции. Сборник статей, 23-24 марта 2017. – s. 295-296.

10. Kiçik sahibkarlığın inkişafının zəruriliyi. // – Bakı: AMEA İqtisadiyyat İnsitutu “Elmi əsərlər”, 2017, № 3. – s. 195-200.

11. Aqrobiznes sektorunda klasterlərin təşkilinin kişik və orta sahibkarlığın inkişafında rolu. // – Bakı: “Kooperasiya” elmi-praktiki jurnal, 2018, № 3 (50). – s. 72-76.

12. Приоритетеные направления государственной поддержки малых и средних предприятий в аграрном секторе Азербайжанской Республики // – Москва: Научный журнал «Интернаука», 2018, № 6 (40). – стр. 62-65.

13. Aqrobiznes sektorunda istehsal subyektlərinin dəstəkləməsinin prioritetləri // – Gəncə: ADAU-nun Elmi Əsərləri, 2018, № 1. – s. 116-119.

14. Aqrobiznes sektorunun inkişafında investisiya cəlbediciliyinin yüksəldilməsinin rolu // – Bakı: Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnsitutunun Elmi əsərləri, 2018, № 2. – s. 58-61.

15. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın maliyyələşməsi sisteminin təkmilləşdirilməsinin əhəmiyyəti // – Gəncə: ADAU-nun Elmi əsərləri, 2019, № 1. – s. 106-109.

16. Основные направления стимулирования малого и среднего предпринимательства в Азербайджанской Республике // – Москва: Вестник Науки и образования. Науно-методический журнал № 6 (60) Ч.1. Март, 2019. – стр. 5-10.

17. Factors influentcıng the development of entrepreneurs production and sales relationships the agrıbusıness sector of the republic of Azerbaijan // – Vienna: The European Journal of Economics and Management Sciences, 2019, № 2. – p. 32-35.

18. Aqrobiznes sektorunda kiçik və orta sahibkarlğın ixrac imkanlarının yüksəldilməsini şərtləndirən amillər // – Bakı: “Kooperasiya” elmi-praktiki jurnal, 2019, № 2 (53). – s. 148-151.

19. Aqrobiznes sektorunda qiymət amili və onun tənzimlənməsi istiqamətləri // – Gəncə: Azərbaycan Texnologiya Universiteti.

Universitet reytinqi məsələlərinin əsas problemləri. Beynəlxalq elmi-praktik konfrans materialları, 2021. – s. 187-190.

20. Covid -19 pandemiyası dövründə aqrobiznes sektorunda sahibkarlıq subyektlərinin rəqabət imkanlarının yüksəldilməsi istiqamətləri // – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasi. Post pandemiya iqtisadiyyatı: reallıqlar və proqnozlar, 3 iyun 2021 virtual respublika elmi konfransı. – s .37-40.

21. Aqrobiznesdə kiçik və orta sahibkarlığın inkişafının əsas aspektləri, monoqrafiya ADAU-nun Elmi Şurasının 23.04.2021-ci il tarixli iclasının (EŞ № 06/4.16) qərarı ilə nəşr hüququ verilmişdir. Bakı-2021, – 196 s. (23422 işarə)

22. Difficulties faced by small and medium entrepreneurs in the agribusiness sector of the Republic of Azerbaijan and ways to overcomethem. // – Austria, Klosterneuburg: Mitteilugen Klosterneu-burq Journal, 2021. – p. 47-54.

23. Факторы, обусловливающие необходимость развития малого и среднего предпринимательства в агробизнесе. // Наука и культура: поиски и открытия материалы XVI Международной Научно-Практической Конференции 10 ноября, – стр. 37-40.

24. Роль малого и среднего предпринимательства в развитии регионов Азербайджана. «Инновационные подходы в современной науке» // – Москва: Сборник статей по материалам CXXVIII международной научно-практической конференции № 20 (128) Октябрь 2022 г. – стр. 51-58.

25. Aqrobiznesdə logistik sistemlər və innovasiya infrastrukturunun formalaşması və inkişafının müasir aspektləri // – Bakı: “Kooperasiya” elmi-praktiki jurnal, 2023, № 4 (71). – s. 51-57.

Dissertasiyanın müdafiəsi 27 noyabr 2024-cü il tarixdə saat $14^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəh., Nəcəf Nərimanov küç., 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Kooperasiya Universitetinin (www.aku.edu.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 25 oktyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 23.10.2024

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 91614 işarə

Tiraj: 100